

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Erməni vəhşiliyi tarixin qan yaddaşından silinməyəcək



13


№ 140 (6823)

SƏS

9 avqust 2023-cü il.
Qiymәti 60 qәpik


## "Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız"



2

**Azərbaycan Prezidenti İlham Əliyev Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib**

# Fransanın acı Afrika sonluğu

*Emmanuel Makron axtarışa verildi, həbsi mütləqdir*




5

## Dmitri Solonnikov: "İrəvan Laçın dəhlizini açıq, Zəngəzur dəhlizini bağlı saxlamağa çalışır"




8

## İsti havalarda iş rejimi necə olmalıdır?



7

## Oxuyaq?.. Oxumayaq?..




10



## "Cəmil Həsənlinin dərdi Qubad dərdi deyil, öz dərdidir"

14

## Bəlkə sizin övladınız da onun qurbanıdır?



15

# “Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız”

## Azərbaycan Prezidenti İlham Əliyev Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də Xalq artisti Rasim Balayevə ”İstiqlal” ordenini təqdim edib. Dövlətimizin başçısı əvvəlcə Xalq artisti Rasim Balayev ilə söhbət edib.**

Rasim Balayev: Salaməleyküm.

Prezident İlham Əliyev: Salam, xoş gördük.

Rasim Balayev: Mənim bir arzum var idi ki, Qarabağdan sonra, işlərinizdən sonra Sizi qucaqlayım. Çox şükür ki, bizə qismət oldu.

Prezident İlham Əliyev: Sağ olun. Sizi, ilk növbədə, yubileyiniz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Rasim Balayev: Çox sağ olun.

Prezident İlham Əliyev: Siz Azərbaycan xalqını öz sənətinizlə uzun illərdir ki, sevindirirsiniz. Fəaliyyətiniz çox məhsuldardır, onlarla filmdə çəkilmisiniz. Ümumiyyətlə, Azərbaycanın kino sənətinə çox böyük töhfə vermisiniz və bu fəaliyyət davam edir. Mən buna çox sevinirəm, çox şadam.

Rasim Balayev: Çox sağ olun.

Prezident İlham Əliyev: Siz, eyni zamanda, ölkəmizin ictimai həyatında da çox fəalsınız. Çox dəyərli fikirləriniz ölkəmizin ümumi inkişafına dəstəkdir. Təbii ki, sizin kino fəaliyyətiniz Azərbaycan xalqı üçün Babək, Nəsimi obrazları ilə də bağlıdır. Xalq qəhrəmanımız Babəkin, dahi şairimiz Nəsiminin obrazlarını siz canlandırmısınız və Azərbaycan xalqının təsəvvüründə də onlar elə sizin obrazınızdır.

Mən sizi ürəkdən təbrik etmək, sizə cansağlığı, uzun ömür arzulamaq istəyirəm. Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir, həm sovet dövründə bir çox mükafatlarla təltif olunmusunuz...

Rasim Balayev: Rəhmətlik Ulu Öndərimiz 50 yaşımdan həmişə mənim qayğıma qalıb.

Prezident İlham Əliyev: Bəli, elədir.

Rasim Balayev: Bunu da Siz davam etdirirsiniz.

Prezident İlham Əliyev: Qeyd etdiyiniz kimi, müstəqillik dövründə də 50 illik yubileyinizdə sizi ”Şöhrət” ordeni ilə təltif etmişdir.

Rasim Balayev: Siz isə ”Şərəf” ordeni.

Prezident İlham Əliyev: Bəli, mən ”Şərəf” ordeni ilə. Bu yubiley ərəfəsində də siz yüksək ordenimiz olan ”İstiqlal” ordeni ilə təltif edilmisiniz. Sizi bir daha təbrik edirəm.

Rasim Balayev: Təşəkkür edirəm, cənab Prezident. Dediyim odur ki, mən Sizin apardığınız bütün siyasəti - daxili və xarici siyasəti dəstəkləyirəm. Möhtəşəm Qələbə də Sizin adınızla bağlıdır. Mən xalqın arasında oluram, bütün təbəqələrlə görüşürəm, Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız. Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq.





***”Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq”***



Bu mükafat Azərbaycan sənətinə, sənətkarlara verilən qiymətdir. Biz başda Siz - Ali Baş Komandan olmaq şərtilə qəhrəmanlarımızı, qazilərimizi mütləq kino xətti ilə vəsf etməyə borcluyuq. Bu, bizim borcumuzdur, biz gərək bunu edək.

Mən Sizin bütün bu fəaliyyətinizi bir vətəndaş kimi dərindən izləyirəm və Sizə çox böyük inamımız var. Ad gününüzü rayonlarda, Qarabağda camaatla birlikdə qeyd edirsiniz.

Prezident İlham Əliyev: Bəli, sağ olun.

Rasim Balayev: Bütün bunları hamı, millət görür. Mən Sizə bu yolda uğurlar diləyirəm.

Prezident İlham Əliyev: Sağ olun.

Rasim Balayev: Yenə də deyirəm, cənab Prezident, biz Sizə borcluyuq. Sizə və xalqımıza borcluyuq ki, bu gözəl, möhtəşəm Qələbəni biz kino vasitəsilə vəsf etməliyik. Çünki Qələbə, müharibədəki qəhrəmanlıqlar, orada iştirak edən qazilərin fədakarlığı hər yerdə göstərilməlidir. Mən bir-iki dəfə Şuşaya getmişəm, inanın gözlərim yaşarıb. Çünki mən 1986-cı ildə də getmişdim, orada İsa bulağının yanında ailəvi şəkil çəkdirmişdik. Sonra da 2021-ci ildə getdim. Bu xoşbəxtliyi bizə Siz bəxş etmisiniz. Siz deyirdiniz ki, bizim güclü Ordumuz var, mən nəyin və nə vaxt olacağını yaxşı bilirəm. Siz, nəhayət, bu uğuru gətirdiniz. Xalq Sizi çox sevir.

Prezident İlham Əliyev: Çox sağ olun, Rasim müəllim.

Rasim Balayev: Biz həmişə dövlətimizin, dövlətçiliyimizin arxasındayıq və gələcək işlərimizdə Sizin bu diqqətinizə layiq olmağa çalışacağıq. Mən inanıram ki, Sizin və xalqımızın sevdiyi filmləri yenidən çəkəcəyik.

Prezident İlham Əliyev: Çox sağ olun.

Daha sonra dövlətimizin başçısı ”İstiqlal” ordenini Rasim Balayevə təqdim edib.

---

# Norveç nəşri: **“Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülür”**

Dünya Azərbaycanın Ermənistan ilə dövlət sərhədində ”Laçın” dövlət sərhədindən buraxılış məntəqəsini yaratması ilə erməni yalanlarının yeni dalğasına şahid olmağa başladı. Yalana ”həqiqət donu” geyindirərək dünyaya sırımağa çalışan ermənilərin həyasızlığına və məkrliyinə dair tarixdə saysız-hesabsız nümunələr var. Lakin təəssüf doğuran hal odur ki, dünya ictimaiyyəti ermənilərin bu manipulyasiyalarına və yalanlarına nəinki inanır, hətta bəzən onun fəal iştirakçısına, alətinə çevrilir. Çox təəssüf ki, bu hala beynəlxalq ictimaiyyətin ermənilərin Azərbaycanın Qarabağdakı erməni əhalisinin guya ”blokada”da qalması və ”humanitar fəlakət” hay-küyünə qulaq verməsində bir daha şahid oluruq. Lakin yalan ayaq tutar, yeriməz deyirlər. Qarabağdakı ermənilərin bu yalanları elə onların özləri tərəfindən biabırçı formada üzə çıxarılır.

Norveçin nüfuzlu ”Aftenposten” nəşrində dərc olunan ”Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülür” sərlövhəli məqalədə Qarabağdakı ermənilərin guya ”humanitar fəlakət”lə üzləşmələri barədə erməni yalanlarından bəhs edilib.



Aftenposten Nyheter Meninger Podkast A-magasinet Vink

Debatt | Nagorno-Karabakh

Aserbajdsjan blir feilaktig anklaget

Debattredaksjonen

Lytt til saken • 1 minutt

KORT SAGT

Dagens korte debattinnlegg

Aserbajdsjan blir feilaktig anklaget for å isolere sine 120.000 armenske innbyggere fra resten av verden uten tilgang til mat, vann, medisiner, drivstoff og elektrisitet.

Aserbajdsjan er villig til å møte alle behovene til armenere og tilbyr en åpen vei mellom distriktet Aghdam og Khankendi, hovedstaden i Karabakh. Khankendi er pr. nå styrt av armenere. Påstandene om den «humanitære krisen» og «blokaden» er ren politisk manipulasjon.

Armenia manipulerer bevisst medienes narrativ, samt den internasjonale offentlighetens mening.

Khankendi ser ut til å være drømmedestinasjonen basert på funnene mine i sosiale medier. Jeg håper norske journalister tar initiativ til å undersøke.

*Shervin Najafpour*
*Leder, Cultural bridge builder organization (CAN) - frivillig organisasjon som arbeider med brobygging mellom Norge og Aserbajdsjan*

Məqalənin müəllifi, Norveçdə fəaliyyət göstərən ”Can” diaspor təşkilatının sədri Şervin Nəcəfpurun qələmə aldığı yazıda ”Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılmasından sonra Qarabağdakı ermənilərin guya blokadada qalmaları barədə əsassız iddiaları müəllifin topladığı, Qarabağdakı ermənilərin gündəlik həyatları ilə bağlı sosial şəbəkələrdəki paylaşımları ilə alt-üst edilib. Yazıda vurğulanıb ki, Azərbaycana qarşı guya Qarabağdakı erməni əhalisini qida, su, dərman, yanacaq və elektrik enerjisi ilə təmin olunmadan dünyanın qalan hissəsindən təcrid etməsi ilə bağlı əsassız ittihamlar irəli sürülür. Lakin Azərbaycan ermənilərin bütün ehtiyaclarını ödəməyə hazırdır. Azərbaycan Qarabağa malların daşınması üçün Ağdam rayonu ilə Xankəndi arasındakı açıq yoldan istifadə olunmasını təklif edir. Lakin bu təklifi qəbul etməyən ermənilərin ”humanitar böhran” və ”blokada” iddialarının sırf siyasi manipulyasiya olduğu xüsusi vurğulanıb. Ermənistan KİV-lərinin, eləcə də ermənilərin bəzi havadarlarının da bu siyasi manipulyasiyalardan faydalanmağa və erməni yalanlarını daha da şişirtməyə çalışdıqları bildirilib.

Ş.Nəcəfpurun Qarabağın erməni sakinlərinin gündəlik həyatları ilə bağlı sosial şəbəkələrdən topladığı paylaşımları onların ”blokada” şəraitində yaşamaları, ”humanitar fəlakət” ilə üzləşdikləri yalanlarını tamamilə ifşa edir. ”Xankəndi mənim sosial mediadakı axtarışlarıma əsaslansaq, arzulanan yer kimi görünür. Ümid edirəm ki, norveçli jurnalistlər araşdırma aparmaq üçün təşəbbüs göstərəcəklər”, - deyə Ş.Nəcəfpur məqalədə vurğulayıb.

BP Azərbaycan şirkətinin Hökumətlə işlər üzrə baş müşaviri, Qarabağ müharibəsi veteranı Qivami Rəhimli həmin məqalə ilə bağlı şərhində ermənilərin yalan danışmaq ”istedadı” barədə qeyd edib: ”Ermənilərin tarixi faktları saxtalaşdırmaq, qərəzli iddiaları, xüsusən də guya onların əzablara məruz qalması barədə yalanları şişirtmək ənənəsi bu gün də davam edir. Ermənisayağı saxta xəbərlər media orqanlarına yol tapmaqla beynəlxalq ictimaiyyətin diqqətini yayındırır. Necə ki, Ermənistanın Spitak rayonunda baş verən zəlzələ zamanı, ”Azadlıq Radio”sunun qeyd etdiyi kimi, ”...ermənilərin zəlzələdən xilasetmə işləri barədə xəbərləri həqiqət sayıla biləcək qədər çox yaxşı idi”. Ermənilərin uydurma xəbərləri bu gün də həmin köhnə qaydada yayılmaqda davam edir. Amma köhnə bir məsəldə deyildiyi kimi: ”Şahid həqiqəti deyəndə insanların həyatını xilas edir; yalan danışanda insanlara xəyanət edir”.

# Prezidentin regionlara hər səfəri xalqa xidmətin təzahürüdür

## İLHAM ƏLİYEV: "Mənim bölgələrə səfərlərim müntəzəm xarakter daşıyır, həm vəziyyətlə tanış olmaq, həm də əlavə göstərişlərin verilməsi üçün"







Bu fikirləri Prezident İlham Əliyev regionlara səfərləri zamanı çıxışlarında bildirib. Çünki Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikamızda ümummilli lider Heydər Əliyev və Onun siyasi yolunun davamçısı olan Prezident İlham Əliyev tərəfindən regionların inkişafı daima prioritet məsələlərdən biri olmuşdur. Ən əsası da aparılan işlərə nəzarəti Prezident cənab İlham Əliyev bilavasitə özü edir. Məhz bu səbəblə də dövlət başçısının müntəzəm olaraq regionlara səfər etməsi və bütövlükdə Azərbaycanın iqtisadi baxımdan güclü dövlətə çevrilməsi üçün mühüm addımlardır. Bu baxımdan regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətində prioritet təşkil edir. Həmçinin, Prezident İlham Əliyevin bölgələrə hər səfərindən sonra həmin regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə Tədbirlər Planı təsdiqlənir, Prezidentin Ehtiyat Fondundan vəsaitlər ayrılır. Bu mühüm addımın bölgələrin inkişafına nə kimi təsir göstərdiyi əldə olunan sosial-iqtisadi göstəricilərdən daha aydın görünür. Dövlət başçısı İlham Əliyev daim bildirir ki, hər bir şəhər, bölgə, kənd və qəsəbə bu inkişafı, tərəqqini öz həyatında hiss etməlidir. Bu məqsədə nail olmaq üçün birgə səylərin göstərilməsi, icra strukturlarının öz səlahiyyətlərini yüksək səviyyədə yerinə yetirmələri bir tələb kimi qarşıya qoyulur. Məhz bu baxımdan elə bu günlərdə

### PREZİDENT İLHAM ƏLİYEVİN QAZAX, ŞƏMKİR, SAMUX VƏ BƏRDƏ RAYONLARINA SƏFƏRİ, SƏFƏR ÇƏRÇİVƏSİNDƏ BİR SIRA MÜHÜM SOSİAL OBYEKTLƏRİN AÇILIŞINDA VƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞ OLMASI DÖVLƏTİMİZİN BAŞÇISININ UĞURLU SİYASƏTİNİN GÖSTƏRİCİSİDİR

Bəli, məhz bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılır, baş tutan açılışlar və təməlqoyma mərasimləri isə görülmüş işlərin həcminin göstəricisidir. Dövlətimizin başçısının regionlara etdiyi səfərlər iqtisadi əhəmiyyətinə paralel olaraq həm də böyük siyasi önəm kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə davam edən inkişaf tempinə müvafiq olaraq regionlarda abadlıq-quruculuq, yenidənqurma işləri davam etdirilir. Regionların iqtisadiyyatını möhkəmləndirməklə yanaşı, burada yaşayan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması istiqamətində də əməli işlər görülür. Dövlət başçısının müvafiq sərəncamlarına uyğun olaraq, yolların tikintisi və yenidən qurulması, su, qaz, elektrik təsərrüfatlarının yenilənməsi və müasirləşdirilməsi, körpülərin salınması, sosialyönümlü obyektlərin yenidən qurulması və əsaslı təmiri prosesi davam edir. Bütün bu sadalanan amillər ölkə başçımız tərəfindən həm regionlara, həm də orada yaşayan vətəndaşlarımıza, onların sağlamlığına, maddi rifahına göstərilən xüsusi diqqətin təzahürüdür.

### AZƏRBAYCANIN HƏR BİR BÖLGƏSİ ÖZÜNÜN YENİ İNKİŞAF MƏRHƏLƏSİNİ YAŞAYIR

Bəli, bu gün Azərbaycan öz nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, öz təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bütün bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, yol infrastrukturu mühüm əhəmiyyətə malikdir. Azərbaycanın yol infrastrukturu özünün sürətli inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar, bütün sahələrdə olduğu kimi, yol infrastrukturu da uğurla həyata keçirilir. Son vaxtlar yol infrastrukturunda ən müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması dövrü başlayıb. Avtomobil yollarının bərpası və yenidən qurulması və yeni yol şəbəkələrinin çəkilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət başçısının imzaladığı sərəncamlara, qəbul olunan dövlət proqramlarına uyğun olaraq, yol-nəqliyyat infrastrukturunun yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenilənməsi və müasirləşdirilməsi istiqamətində işlər uğurla davam etdirilməkdədir. Regionların, həmçinin, kənd və qəsəbələri birləşdirən avtomobil yolların, yolayırıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Son illər ölkəmizin demək olar ki, hər bir istiqamətində avtomobil yolları salınmış, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilmiş və yeni körpülər tikilmişdir. Ölkənin magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Xüsusilə də, regionların yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də, kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur. Kəndlərarası və kənddaxili avtomobil yolları da daxil olmaqla, salınan avtomobil yollarının həcmi sovet dövründə salınmış avtomobil yollarının həcmindən dəfələrlə çoxdur.Görülən işlər, bir daha deməyə əsas verir ki, həyata keçirilən infrastruktur layihələr nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Prezident İlham Əliyev Qazax rayonuna səfəri çərçivəsində rayonda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak edib. Bildirilib ki, uzunluğu 19 kilometr olan Qarapapaq-Çaylı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Qazax rayonu ərazisində üç yaşayış məntəqəsini birləşdirən bu yolun yenidən qurulması nəticəsində 14 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb. Yenidənqurma işləri yekunlaşdıqdan sonra zəruri olan yerlərdə yol nişanları, siqnal dirəkləri və məsafə göstəriciləri, dayanacaqlar quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkilib.Həmçinin, Prezident İlham Əliyevə Fərəhli avtomobil yolunun əsaslı təmiri layihəsi də təqdim olunub. Qeyd edilib ki, di ki, Qazax rayonunun Qazax-Yuxarı Əskipara avtomobil yolunun 13-cü kilometrliyindən ayrılan Fərəhli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq görülən yenidənqurma işləri yekunlaşıb. Bir sözlə, yolun tikintisi həmin kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının bazarlara və digər satış məntəqələrinə vaxtında çatdırılmasına şərait yaradacaq.Dövlət başçısı Qazax rayonuna səfəri çərçivəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, 20,5 hektar ərazini əhatə edən hərbi hissə kompleksinə qərargah binası, 5 binadan ibarət 146 mənzilli yaşayış kompleksi, yeməkxana, hamam, camaşırxana və tibb məntəqəsindən ibarət əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları daxildir. Bununla yanaşı, kompleksin ərazisində helikopter meydançası, hərbi texnikaların saxlanması üçün avtomobil parkı, avtomobil yuma və yanacaqdoldurma məntəqələri, silah, ərzaq və əşya-geyim anbarları, içməli su anbarı, qazanxana binası mövcuddur.Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub. Bildirilib ki, Qazax Müəllimlər Seminariyasının tarixi 1876-cı ildə Qoridə yaradılmış Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır.

Ümumilikdə 250 azərbaycanlı, o cümlədən Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli Qori Seminariyasını bitirib.1918-ci ildə çar rejiminin dağılmasından sonra Zaqafqaziya Müəllimlər Seminariyası parçalanıb və onun Azərbaycan bölməsinin bazasında Qazax Müəllimlər Seminariyası yaradılıb. Azərbaycan bölməsinin Qoridən Azərbaycana köçürülməsini Firidun bəy Köçərli həyata keçirib. Qazax Müəllimlər Seminariyasının təntənəli açılışı qazaxlı Məşədi İbrahimin seminariyaya hədiyyə etdiyi evdə 1918-ci il noyabrın 10-da baş tutub. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinin keçirilməsi haqqında göstəriş verib və bu məqsədlə təşkil olunmuş ümumrespublika elmi-praktiki konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb.Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100, 2013-cü il fevralın 14-də isə Firidun bəy Köçərlinin 150 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Dövlət başçımız, həmçinin Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak edib və Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsini bildirən düyməni basıb.

Qazaxda "Venzana" mebel fabrikinin açılışında iştirak edən Prezident İlham Əliyev fabrikdə görülən işlərlə tanış olub və "Venzana" mebel fabrikini işə salıb. Prezident İlham Əliyev, həmçinin Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Gəncə-Qazaxbeyli hissəsinin açılışında iştirak edib.Eləə həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Şəmkir, Samux və Bərdə rayonlarına səfəri çərçivəsində bir çox obyektlərin açılışını edib. Xüsusilə də, həmin rayonlarda yeni təhsil ocaqlarının açılmasında iştirak edib. Çünki dövlətimizin başçısı təhsilin inkişafına həmişə böyük önəm verir. Həmçinin, Prezident İlham Əliyev avqustun 7-də Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib.

Qeyd olunub ki, Samux Rayon Mərkəzi Xəstəxanasının tikintisinə 2019-cu ildə başlanılıb. İnşaat işləri bu ilin avqustunda başa çatdırılıb. İki hektar sahədə inşa olunan xəstəxana 90 çarpayılıqdır. Tibb müəssisəsinin üçmərtəbəli binasında əhaliyə ən müasir tələblər səviyyəsində səhiyyə xidməti göstərilməsi üçün lazımi şərait yaradılıb. Belə ki, xəstəxana Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən müasir avadanlıqla təchiz edilib.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Bərdədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışında iştirak edib. Qeyd edək ki, DOST Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılıb. Agentliyin DOST mərkəzləri vasitəsilə tam şəffaf və vətəndaş məmnunluğu prinsipləri əsasında məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində "bir pəncərə" prinsipi ilə 15 istiqamət üzrə 159 xidmət göstərilir. Hazırda Azərbaycanda 6 DOST Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə indiyədək 1 milyon 673 min nəfərə xidmət göstərilib.Bir sözlə, bütün bu uğurlu nəticələr bir daha onu təsdiqləyir ki, Prezident İlham Əliyevin siyasi kursunun təməlində vətəndaşların rifahının yaxşılaşdırılması dayanır. Dünyada bu gün sosial-iqtisadi layihələr həyata keçirən dövlətlər çox azdır. Bu gün Azərbaycan iqtisadiyyatı inkişaf edir, sosial layihələr icra olunur. Hər şey vətəndaşların rifahı naminə edilir və ölkənin iqtisadi gücü də artmaqda davam edir. Bu, Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uzaqgörən siyasətinin göstəricisidir.

**RƏFİQƏ KAMALQIZI**

# Milli-mənəvi dəyərlərimizə töhfə

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması ”Arxeoloji irsin mühafizəsi haqqında” Avropa Konvensiyasına, ”Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun konvensiyasına zidd olsa da, 30 il işğal altında qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. Ümumiyyətlə, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan dəyib. Ermənistan qanunsuz silahlı birləşmələri tərəfindən dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına küllü miqdarda ziyan vurub. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edir. Erməni vandalları xalqımıza məxsus olan bütün abidələr dağıdıb, yerlə-yeksan ediblər. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənilərin əxlaqsızlıq, mənəviyyatsızlığının məntiqi olaraq Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla simasız, rəzil olduqlarını göstərmiş oldular.

Qeyd edək ki, Ağdam şəhərindəki Cümə məscidi Kərbəlayi Səfixan Qarabağı adlı memar tərəfindən 1868-1870-ci illərdə tikilmişdir. Bölgədə mühüm ticarət mərkəzinə çevrildiyi zaman Ağdam şəhərində Qarabağın özünəməxsus dini memarlığının monumental örnəklərindən biri - Ağdam Cümə məscidi inşa edilmişdir. Cümə məscidi erməni işğalından sonra qismən dağıdılmışdır. Associated








Press qeyd edir ki, məscid Ağdam şəhərində tam dağıdılmayan tək tikilidir, burada mal-qara və donuzlar saxlanmışdır və divarı qraffiti ilə vandalizasiya edilmişdir. Məscidin interyeri baxımsız və dağıdılmış vəziyyətdədir. Erməni işğalından sonra Ağdam Cümə məscidi dəyişikliklərə məruz qalmışdır. Belə ki, Ermənistan Respublikasının müvafiq dövlət qurumları tərəfindən, azərbaycanlıların ibadət yeri olan Ağdam məscidinin rəsmi şəkildə təhqir olunmasına və dağıdılmasına qərar verilmişdir. Məscidin minarələri daxildən tamamilə sökülmüş, tavanı bir neçə yerdən uçurdulmuş, daxili tərtibatı, dizayn və divar yazıları pozulmuş, hücrələri və yardımçı otaqları uçurdulmuş, komunal və komunikasiya xətləri dağıdılaraq tamamilə yararsız hala salınmışdır. Məscidin bəzək əşyaları, texniki avadanlıqları, qurğuları, bərk və yumuşaq inventarları qarət edilərək Ermənistan Respublikasına aparılmışdır. Ermənilər məscidin ibadət zalından və yardımçı otaqlarından mal-qara və donuzların saxlanması, yəni tövlə kimi istifadə ediblər.

## MÜSƏLMAN ALƏMİNƏ QARŞI CİNAYƏT

Bu azmış kimi Zəngilan rayonunda olan məscidlərdən də bu məqsədlə istifadə ediblər. ”Zəngilan rayonunda yarıdağıdılmış bəzi məscidlərdən tövlə kimi istifadə olunub, orada donuz saxlanılıb”, - deyən Prezident bunun videokadrlarda olduğunu bildirib: ”Ağdam məscidində donuz saxlanılıb və bu, bütün müsəlman aləminə qarşı cinayətdir, İslam dininə qarşı cinayətdir. Bütün müsəlman dövlətləri bunu görməlidir və biz bu həqiqətləri bütün müsəlman ölkələrinin rəhbərlərinin diqqətinə çatdırırıq”. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub.

Bildiyimiz kimi, Xarici İşlər Nazirliyinin hazırladığı ”Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi” və ”Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması” adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. Erməni vandallığını, vəhşiliyini bütün dünya görməlidir, necə ki, 44 günlük Vətən müharibəsində dünya bunu bir daha görmüş oldu. Erməni vandalizmini və barbarlığını, erməni faşist ideologiyasını gözləri ilə görmüş oldu. Azərbaycanın uğurları, qalibiyyəti, işğaldan azad olunan ərazilərimizdə yerləşən abidələrin ermənilər tərəfindən dağıdılması, təbii ehtiyatların talanması və s. dünya ictimaiyyətinə ardıcıl olaraq çatdırıldı.

## ”BÜTÜN TARİXİ, DİNİ ABİDƏLƏRİMİZİ BƏRPA EDƏCƏYİK”

Bildiyimiz kimi, artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. ”Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!”- deyə Mehriban Əliyeva bildirmişdir.

Azərbaycan işğaldan azad olunan bütün ərazilərimizdə olan tarixi, dini abidələrimizi məscidləri tikəcək, yenidən bərpa edəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, ” bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik”.

Prezident İlham Əliyev həmin ərazilərdə sökülən məbədlərin bərpasına diqqətlə yanaşır. Məscidlərlə yanaşı, kilsələr də təmir olunur. İşğaldan azad olunmuş ərazilərdə 10-a yaxın məscidin tikintisi davam edir.

Vətən müharibəsində əldə olunan şanlı qələbədən sonra işğaldan azad olunan ərazilərdə dağıdılan infrastrukturun, şəhər və kəndlərin bərpası, köçkünlərin doğma yerlərinə qaytarılması üçün dövlət tərəfindən qısa müddətdə bütün imkanlardan istifadə edilir. Bu da ölkə başçısının mədəni irsimizə böyük diqqət və qayğısının təzahürüdür, milli-mənəvi dəyərlərimizin qorunmasına töhfədir. Hazırda Şuşa, Zəngilan, Ağdam, Suqovuşanda, Hadrutda onlarla məsciddə təmir-bərpa işləri həyata keçirilir. Artıq bir neçə məsciddə tikinti işləri başa çatmaq üzrədir. Dövlət tərəfindən ”Böyük Qayıdış” planına uyğun olaraq keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər olunub.

***Zümrüd BAYRAMOVA***

# Fransanın acı Afrika sonluğu

*Emmanuel Makron axtarışa verildi, həbsi mütləqdir*

**Vaxtilə dünyanın yarısından çoxunu müstəmləkədə saxlayan Avropa ölkələrinin əksəriyyəti bu siyasətindən hələ ötən əsrin 80-ci illərindən başlayaraq əl çəkməyə başladı. İngiltərə, İspaniya, İtaliya, Portuqaliya, Niderland Afrika, Asiya, Karib hövzəsi, Cənubi Amerika və Okeaniyadakı koloniyalarını ləğv etdilər. Düzdür, bu, koloniyaların tam ləğvi, müstəmləkəçilik siyasətinə son vermək anlamına gəlməsə də, avropalıların boyunduruğundan azad olan xalqlar qismən azadlıqlarına qovuşdular. Bu sırada Fransanın adını niyə çəkmirik? Bəli, bu, səbəbsiz deyil. Məsələ burasındadır ki, rəsmi Paris yalnız kağız üzərində koloniyalarından imtina edib, əslində isə, neokolonializm siyasəti yürüdür, yeni dövrün tələblərinə uyğun davranır. Və bunun da bədəlini artıqlaması ilə ödəyir**




Günümüzün reallığı budur ki, Fransa ordusu təkcə üsyankar Nigeri deyil, bir çox digər Afrika ölkələrini də tərk edir. Yerli sakinlər onunla heç bir təəssüflənmədən vidalaşırlar. Baxmayaraq ki, fransızlar bunu başa düşməkdən uzaqdırlar, onlar bu yerlərin sakinlərinə 19-cu əsrdə gəldikləri kimi davranırlar.

Nigerdəki hərbi çevriliş Sahel bölgəsində son illərdə Fransanın üçüncü, Qərbi Afrika kimi onun prioritet zonasında növbəti məğlubiyyəti idi. Və hər şeydən əvvəl, bu, müstəqillik əldə etdikdən 60 ildən çox vaxt keçsə də, hələ də qitədə mövcud olan Fransa silahlı qüvvələrinin məğlubiyyəti idi. Nəticədə, Fransa yerli əhalidən və siyasi dairələrdən getdikcə daha az dəstək almağa başlayıb, daha doğrusu, fransız ordusunun nüfuzu sürətlə sıfıra yaxınlaşmaqdadır.

Niger hərbçilərin qalib gəldiyi Çadla birlikdə Sahel bölgəsində Mali və daha sonra Burkina Fasodan çıxarılan Fransa hərbi qüvvələrini qəbul edən və hətta onlardan kömək istəyən yeganə ölkə idi. İyulun 26-dan xeyli əvvəl prezident qvardiyasına rəhbərlik edən general Abdurahamane Tchiani tərəfindən devrilmiş Niger prezidenti Məhəmməd Bazoum Fransanın sadiq və sadiq müttəfiqi sayılırdı. Baxmayaraq ki, o, bu cür əməkdaşlığın təhlükələrini çoxdan dərk edirdi...

Onlar fransız ordusunun Nigerdə artan mövcudluğunu "asan və demək olar ki, görünməz" etməyə çalışdılar. Saheldəki fransız qüvvələrinin başçısı general Bruno Baratz: "Biz əsgərlərimizin şüurunu yenidən quracağıq. Bizim Malidə olmuş və uğursuz Barkhane əməliyyatı keçirmiş bir çox bölməmiz var. Lakin fransız qoşunlarının bu gün Niger və Çadda etdiklərinin bununla heç bir əlaqəsi yoxdur. Biz həqiqətən özümüzü tərəfdaşlarımızın ixtiyarına veririk, nizama salırıq.



Bu strategiyada böyük dəyişikliklərdir", kimi fikirlər səsləndirsə də, uzun illər müstəmləkə dövrü zamanı əzilən millət bundan sonra Fransanın köləsi olmaqdan imtina edərək münasibətlərə yenidən baxmaq qərarına gəliblər.

## Niger ordusu güclənir

2022-ci ildə Paris Malinin şimalındakı və mərkəzindəki bazalarını boşaltmağa, bu ilin əvvəlində isə Burkina Fasodan "xüsusi qüvvələri"ni çıxarmağa məcbur olub. Paris Nigerdəki silahlı qüvvələrinin bir hissəsini əsasən hava aktivlərindən - qırıcılardan və pilotsuz təyyarələrdən istifadə etmək üçün 1500 nəfərə qədər azaldıb. Daha 1000 nəfər isə əməliyyatların keçmiş komanda mərkəzi olan Çadda qalıb. Beləliklə, cəmi bir neçə ay ərzində Saheldəki fransız qoşunlarının sayı iki dəfə azalıb. General Baratzın fikrincə, 2025-ci ilə qədər onların sayı "xüsusilə təsirli üsyanla mübarizə strategiyası" hazırlamış Niger ordusunun artması hesabına daha da azalmalıdır.

Bu yeni növ "mübariz tərəfdaşlığı" yaxşı nəticə verməyib və xüsusən də silahlı qrupların fəaliyyət göstərdiyi Niger, Mali və Burkina Faso sərhədlərində "üç sərhəd"in irredentist zonasında istifadə olunub. Amma çox güman ki, yeni rejim artıq bərpa olunmayacaq. Qeyd edək ki, Nigerdəki yeni rejim çevrilişin Paris tərəfindən dərhal pislənməsinə, eləcə də maliyyə yardımının dayandırılmasına dözə bilməyib. Paytaxtda nümayişçilər Fransa simvollarını qoparmağa və Rusiya bayraqlarını dalğalandırmağa başlayanda yeni rejimin başçısı Fransanı "müdaxilə"də ittiham edib. İyulun 30-da baş verən hadisələr Yelisey Sarayını Nigerdəki vətəndaşları, əsgərləri və diplomatları üçün hər hansı təhlükə yaranarsa, "yeni hakim xunta"nı "dərhal və barışmaz reaksiya" ilə hədələməyə vadar etdi. Həmçinin avqustun 1-də arzu edən bütün fransız və avropalıların hərbi təyyarələrlə vətənə qaytarılması qərara alınıb. Növbəti addım Fransa və Niger arasında hər hansı hərbi əməkdaşlığın dayandırılması gündəmdədir.

Ölkənin şimalında yalnız pilotsuz təyyarə bazası olan, lakin artıq çevrilişi pisləyən ABŞ hökuməti ilə münasibətlər də sual altında ola bilər. Nigeri Qərb hərbçilərinin köməyindən təcrid etmək, eyni anda iki "cihadçı" cəbhənin təhdid etdiyi ölkə üçün təhlükəli ola bilər.

## Texniki fayda

Fransa Nigerlə hərbi əməkdaşlıq üçün yeni yumşaq formul kimi qitədəki mövcudluğunun daha geniş islahatının bir hissəsi olaraq, daimi qoşunların sayını (hazırda təxminən 6,000) daha da azaltmağa yönəldilib. Həm də Abidjan, Dakar və Librevildəki fransız bazalarının rolunu dəyişdirmək də real plandır. Bu plana əsasən, onlar əməliyyatlar üçün qala deyil, hərbi təlim mərkəzlərinə çevriləcəklər. Kot-d'İvuardakı qoşunların sayının azaldılması və ixtisasartırma sahəsində hərbi mütəxəssislərin, xüsusən də regional diqqət mərkəzində olan milli hərbi məktəblərin müəllimlərinin (ENVR) işə cəlb edilməsinə diqqət yetirilir. 2013-cü ildə Malidə Serval kimi əməliyyatlar gələcəkdə bu cür hücumların həyata keçirilməsini çətinləşdirəcək.

Düzdür, hərbçilərin fikrindən fərqli daha skeptik baxış var. "Africa XXI" jurnalında Survie assosiasiyasından Rapha?l Granvaud çevrilişdən əvvəl xəbərdarlıq etmişdi ki, Fransanın Saheldəki mövcudluğunun "yeni versiyası" prezident Emmanuel Makronun əməliyyat dayandırıldıqdan sonra həyata keçirməyə qərar verdiyi "yalan"dır. "Barkhan" və Nigerdə yeni hərbi üsullar nümayiş etdirdi. Analitikin fikrincə, bu, sadəcə olaraq, "fasadın kosmetikası"dır. O qeyd edir ki, son onilliklərin bütün hökumətləri Afrikada fransız neokolonializminə son qoyacaqlarını, hərbi personalın sayını azaldacaqlarını, bazaların təyinatını dəyişdirəcəklərini vəd ediblər... Amma bütün bunlar nədənsə yerinə yetirilməmiş bir istək olaraq qaldı - xalqın imicinin məhv edilməsi, uzun müddət fransızlarla əlaqəli olan "Afrika jandarması" sona doğru addımlayır.

## Kolonizasiyanın qalıqları

Fransız əsgərlərinin Nigerdən daha çox çıxarılmasının təfərrüatları hələ işlənməsə belə, Niameydəki çevriliş, şübhəsiz ki, Fransa ordusunun müstəmləkə dövründən qalma Saheldəki mövcudluğunun sona çatdığını göstərir. Bu, həm də fransız qoşunlarının mühüm tərkib hissələrindən birinin - dəniz piyadalarının demək olar ki, tam tənəzzülündən xəbər verir. Müstəmləkəçilikdən sağ çıxan bu qoşunlar "xarici" əməliyyatlar zamanı qazanılan təcrübənin mühafizəçiləridir. Onlar xalq mənşələri, səyahət və macəra sevgisi ilə fəxr edirlər və "xalqın ehtiyaclarına diqqət yetirən bir əsgər ideyası" nın müdafiəsi ilə yanaşı, ənənəvilik üçün müəyyən meyillidirlər.



**Ardı Səh. 6**



# Fransanın acı Afrika sonluğu

*Emmanuel Makron axtarışa verildi, həbsi mütləqdir*

Əvvəli Səh.5

Onlar 19-cu əsrdə Meksika, Taiti, Çin, Tunis, Madaqaskar, Qərbi və Mərkəzi Afrikaya ekspedisiyaların əsas hissəsini təşkil edirdilər. Yerli sakinlərdən toplanmış tüfənglərlə gücləndirilmiş "marsuen" və "biqor" alayları 1914-18-ci illərin döyüşlərində iştirak etmiş, sonra İkinci Dünya Müharibəsinin sonunda Azad Fransız könüllülərinin əsas hissəsini təşkil etmişlər. Bundan sonra onlar Xarici legionla birlikdə Madaqaskar, Hind-Çin və Əlcəzairdə "sülhməramlı əməliyyatlar"da iştirak ediblər.

Keçən əsrin ikinci yarısında və bu əsrin əvvəllərində onlara xaricdəki departament və ərazilərdəki "müstəqil qüvvələr", Çad, Livan, Yeni Kaledoniya, Cibutidəki hərbi bazalarda, Əfqanıstan, Şərqi Avropada və əlbəttə ki, Fransız qoşunlarının heç vaxt tərk etmədiyi Saheldə "mövcudluğu təmin edən qüvvələr"də rast gəlmək olar. Müstəmləkəçiliyin əvvəlindən onlar demək olar ki, daim Çadda qalıblar.

## Hərbi mövcudluq

Fransa Mərkəzi Afrika Respublikasında, eləcə də Sahelin bir sıra ölkələrində artıq faktiki olaraq hakimiyyətdən kənarlaşdırılıb. Fransanın Qərbi və Mərkəzi Afrikadakı əsas müttəfiqləri (Kamerun, Konqo, Kot-d'İvuar, Seneqal) çox güman ki, yeni bir böhranla üzləşəcək. Buna görə də Fransa üçün Nigerdəki çevriliş regionda bir sıra digərlərindən sonra növbəti siyasi uğursuzluq sayılır. Bununla belə, Malidə "itirilmiş müharibə"nin nə hərbi, nə də siyasi müstəvidə qiymətləndirilməsi hələ də yoxdur.

Afrika ölkələrinin ictimai rəyi üçün getdikcə qəbuledilməz hala gələn hərbi mövcudluğun saxlanmasının zəruriliyi məsələsi nə parlamentdə, nə də digər müzakirələrdə qaldırılmayıb. Baxmayaraq ki, bu gün Fransanın qitədəki diplomatik, iqtisadi və mədəni çəkisi və təsiri onun çox "gözə çarpan" daimi, hərbi mövcudluğu ilə müqayisə olunmazdır. Ancaq nəticələr, xüsusən Niger-




də gözləntilərə uyğun gəlmədi. Fransanın bölgədəki siyasəti çox uzun müddətdir ki, həddindən artıq orduya (halbuki polis və jandarmlar bəzən daha məqsədəuyğun olardı) və qeyri-müəyyən konturlu düşmən axtarışına ("terrorizm") yönəlib. Və nəticədə Fransanın hərbi-siyasi strategiyası özünün "etik" barışmazlığının qurbanına çevrildi: "Heç vaxt cihadçılarla... Heç vaxt rus Vaqneri ilə...".

## Digər cəbhələr

Bu uğursuzluq seriyası məğlubiyyət kimi görünsə belə, Fransa ordusu Afrika ərazisini tamamilə tərk etmək fikrində deyil. Təlim sahəsində, daha çox ikitərəfli və ixtisaslaşdırılmış əməkdaşlığa əlavə olaraq, bəzi ölkələrin, xüsusən də Qvineya körfəzində terrorla mübarizə yardımına ehtiyac qalmaqdadır. Təbii ki, Afrikadan xaricə miqrasiya ilə mübarizə aparmağa həmişə ehtiyac var.

Fransa ordusu digər cəbhələrdəki problemləri həll etməkdədir, son aylarda Şərqi Avropada, Ukrayna sərhədlərində və ya Şərqi Aralıq dənizində Afrika qitəsindəki əsgərlərdən daha çox əsgəri var. Silahlı qüvvələr Yaxın Şərq, Livan, İordaniya, Əmirliklər, Cibuti və İraqda yerləşdirilib. Fransa Hind-Sakit Okean regionunda mövcud olmaq üçün strategiya hazırlamaq və xarici departamentlər və ərazilər, xüsusən də, hava və dəniz ərazilərində nəzarəti gücləndirmək istəyir. "Afrika ilə vida" bunun yanında əsl "mədəni dəyişiklik" olacaq...

Fransa prezidenti Emanuel Makronun axtarışa verilməsi xəbəri isə aydın səmada şimşək effekti verdi. Afrika qitəsinə səfər edəcəyi halda dərhal həbs ediləcək. Bu, əslində məntiqlidir, çünki Yelisey Sarayının hakimi Afrika qitəsinin xalqlarına indiyədək etdiyinin, sadəcə, bədəlini ödəyir.

**V.VƏLİYEV**



# İsti havalarda iş rejimi necə olmalıdır?

***Yay mövsümü ilə əlaqədar artan hava istiliyi gündəlik həyatımıza olduğu kimi iş həyatımıza da müxtəlif təsirlər göstərir. Belə isti havalarda daha çox yorğun və yuxulu hiss edə bilərik. Həmçinin, bu cür havalar diqqətimizi cəmləməyi çətinləşdirir. İsti havanın özü ilə birlikdə gətirdiyi dincəlmək istəyinə baxmayaraq işləmək məcburiyyətində olmağımız motivasiyamızın azalmasının səbəblərindən sayıla bilər. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

İsti havada motivasiyamızı artırmaq üçün 7 məsləhət



## İşinizi planlayın və bölün

Gündəlik iş rejiminizi planlaşdırmaq və kiçik qeydlər saxlamaq isti havada sizi motivasiya edə bilər. Bunun üçün həftəlik planlaşdırıcılar alaraq, gündəlik planınızı yazın. Beləliklə, qeyd etdiyiniz tapşırıqları yerinə yetirərkən onları işarələməklə daha çox motivasiya ola bilərsiniz. Siz evdə asanlıqla planlayıcıları özünüz çəkə və onları əyləncəli fiqurlar və stikerlərlə bəzəyə bilərsiniz. Həm də bütün işləri bir anda bitirməyə çalışmaq yorucu ola bilər. Ona görə də tamamlamalı olduğunuz işi hissələrə bölərək edə bilərsiniz. Kiçik fasilələr diqqətin itirilməsinin qarşısını alır və motivasiyanızı artırır.



## Soyuq qəlyanaltılar hazırlayın

İsti havada işləməyin mənfi cəhətlərindən biri də enerji itkisinin olmasıdır. Bu vəziyyətin qarşısını almaq üçün işə başlamazdan əvvəl dondurma, soyuq qəhvə, milkshake və ya qəlyanaltı kimi soyuq içkilər hazırlayın. Qəlyanaltılarınızı iş yerinizə yaxın saxlamaq yaxşı fikir ola bilər ki, enerjiniz azaldıqda onlara asanlıqla çata biləsiniz. Beləliklə, isti yay günlərində işləyərkən hazırladığınız bu qəlyanaltılar sizə təravətləndirici hiss bəxş edəcək.

## Özünüzü mükafatlandırın

Gün ərzində tamamlamalı olduğunuz işi bitirdikdən sonra özünüzü etməkdən zövq aldığınız bir fəaliyyətlə mükafatlandırın. Günün sonunda sevdiyiniz filmə baxmaq, hobbinizi həyata keçirmək, bəyəndiyiniz bir desert sifariş etmək, dostlarınızla görüşmək kimi zövq aldığınız bir şey edin. Bunlar gün ərzində isti havaya baxmayaraq sizi işləməyə həvəsləndirir və işinizi tez bir zamanda bitirməyə sövq edir.

## Səhər rejimi təyin edin

İşə başlamazdan əvvəl gündəlik iş rejimi qurmaq və ona əməl etməyə diqqət yetirmək diqqətinizi görməli olduğunuz işə yönəltməyə kömək edəcək. Məsələn, səhər kofenizi hazırlamaq, evi havalandırmaq, meditasiya və ya yoqa etmək sizi günə hazırlayan bir başlanğıc rejimi ola bilər.

## Həmkarlarınızla əlaqə saxlayın

Həmkarlarınızla, oxşar şəraitdə işləyən və motivasiyaya ehtiyacı olan, gün ərzində söhbət etməkdən zövq aldığınız insanlarla danışmaq yaxşı fikir ola bilər. Dostlarınızla qısa bir telefon danışığı sizi iş stresindən azad edəcək. Həmkarlarınızla görüşmək isə həm sizin, həm də digər şəxs üçün motivasiya təmin edərək, mövcud vəziyyətlərinizi bölüşməyə və bir-birinizin tək olmadığını görməyə imkan verir.

## Qısa bir tətil edin

Qısa tətillərlə iş tempinizdən ara vermək və dincəlmək sizə lazım olan motivasiyanı qısa zamanda əldə etməyə imkan verir. Havalar isindikcə isti havada işləməyin təhlükələri də artır. İsti havada təhlükəsiz işləməyi bilmək isə istiliklə bağlı narahatlığın qarşısını almağa kömək edir. İstilik səbəbiylə gün vurması, halsızlıq və isti hava ilə bağlı digər problemlər baş verə bilər.

İstilik ilə əlaqəli xəstəliklər və simptomlar

## Günvurma

Bədən artıq tərləmədikdə və temperaturunu idarə edə bilmədikdə, təhlükəli səviyyələrə çatdıqda günvurma baş verir. Bu istilik ilə bağlı ən ciddi narahatlıqdır. Bədən istiliyi 10-15 dəqiqə ərzində 40°C və ya daha yuxarı qalxa bilər ki, bu da vaxtında müalicə edilmədikdə ölüm və ya daimi əlilliklə nəticələnir.

**Günvurma simptomlarına aşağıdakılar daxildir:**

- Quru, isti qırmızımtıl dəri və tərləmə olmaması,
- Yüksək bədən istiliyi,
- Güclü nəbz atması,
- Üşümə/titrəmə,
- Qarışıqlıq/zehin çaşqınlığı,
- Nitqin pozulması.

## İstilik tükənməsi

İstilik tükənməsi bədənin su və duz itkisinə reaksiyasıdır. Adətən tərləmə ilə müşahidə olunur. İstilik tükənməsinin simptomlarına aşağıdakılar daxildir:

- Həddindən artıq tərləmə,
- Zəiflik və ya yorğunluq,
- Başgicəllənmə,



- Yaş dəri,
- Əzələ sancıları,
- Qızarmış dəri.

## Əzələlərdə sancılar

Əzələ sancıları aşağı duz səviyyəsinə görə baş verir və adətən həddindən artıq tərləmə nəticəsində yaranır.

Simptomlarına aşağıdakılar daxildir:

- Əzələ ağrısı, adətən qarın, qol və ya ayaqlarda.
- Əzələ spazmları, adətən qarın, qol və ya ayaqlarda.

## Səpgi

Səpgi həddindən artıq tərləmə nəticəsində dərinin qıcıqlanmasıdır. Tipik simptomlar, adətən boyun və sinənin yuxarı hissəsində, qasıq nahiyəsində, döşlərin altında və dirsək qıvrımlarında görünən kiçik qırmızı qabarcıqlardır.

Oksford Universitetindən Dr. Nikol Mirandanın rəhbərlik etdiyi və "Nature Sustainability" jurnalında dərc edilən yeni araşdırma iqlim böhranının yaratdığı yüksək temperaturun mənfi təsirini azaltmaq üçün klassik 9-5 iş saatından 6-2 iş saatına keçməyi təklif edir. Tədqiqat İtaliya və Yunanıstan kimi Cənubi Avropa ölkələrində iqlim dəyişikliyi və hava hadisələrinin yaratdığı yandırıcı isti dalğasının ortasında aparılıb. İsveçrə və Norveç, eləcə də Böyük Britaniya da "istiliyə hazır deyil" çünki bu bölgələrdəki binalar tarixən istilik üçün nəzərdə tutulmayıb.

## Dünyada 6-2 iş saatı təşkili ənənəvi olaraq bəzi sahələrdə tətbiq olunur

Araşdırmanın müəllifi Dr. Jesus Lizana deyir ki, bu, İspaniyanın bəzi bölgələrində artıq mövcud olan bir tənzimləmədir. Cənubi İspaniya və ya Əndəlüs yayda bu cür işləyir. İyul və avqust aylarında tikinti və ya təsərrüfat işçiləri kimi açıq havada işləyən işçilər, günün ən isti saatlarında işləməmək üçün səhər 6-dan 14-ə qədər işləyirlər. Adətən, isti iqlimlərdə dükanlar yayın ən isti saatlarında bağlanır, axşam saat 14:00-dan 18:00-a qədər işləmir və axşam saat 18:00-dan 21:00-a qədər işləyir.

## Kondisioner qısa müddətdə faydalı, uzun müddətdə isə zərərli seçimdir

Daha çox ventilyasiya və kondisionerlə birlikdə iş saatlarının dəyişdirilməsi həddindən artıq istilərin öhdəsindən gəlməkdə bizə kömək edə biləcək "soyutma müdaxilələrindən" yalnız biridir. Amma problem ondadır ki, variantların çoxu davamlı deyil. Təkcə soyutma üçün 2050-ci ilə qədər lazım olacaq enerji miqdarının 2016-cı ildə Yaponiya, ABŞ və Avropa İttifaqının ümumi elektrik istifadəsinə bərabər olacağı proqnozlaşdırılır. Dr. Miranda, uzun müddətdə problemi daha da pisləşdirəcək bir seçim olan artan istilik və kondisionerdən istifadəyə hazırlığın olmaması barədə xəbərdarlıq edib.

Binaların yenidən qurulması üçün təklif olunan həllər arasında qış aylarında istiliyi saxlamaq üçün söndürülə bilən ventilyasiya tədbirlərinin tətbiqi də var. Bundan əlavə, tenteler kimi kölgə örtüklərinin quraşdırılması və ya binaların yanında daha çox ağac əkilməsi də günəş şüalarının qarşısını ala bilər.

**Əmək Hüquqlarını Müdafiə Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov:** "Havanın temperaturu müsbət 41 dərəcəni keçdikdə Əmək Məcəlləsinə görə havanın temperaturunun süni surətdə tənzimlənməsi mümkün olmayan yerlərdə işlər dayandırılmalıdır. Elə işlər var ki, onların axını fərqlidir və dayandırmaq mümkün deyil. Yəni, fasiləsizlik təmin olunmalıdır. Belə halda isə işəgötürən əlavə tədbir görməlidir ki, işçiləri gün vurmasın. Bu tədbirlər qanunvericilikdə nəzərdə tutulub.

Eyni zamanda işə götürən qanunvericilikdən kənar da əlavə tədbirlər görə bilər. Məsələn açıq havada olan iş yerlərinin yaxınlığında çətirlər quraşdırmaq, tez-tez işçilərə fasilələr vermək, onları ayran və qazlı su kimi sərinləşdirici içkilərlə təmin etmək, mümkün hallarda, yəni təhlükəsizliyə xələl gətirmədən yüngül geyimlə təmin etmək olar. İşəgötürən işçilərin sağlamlığına zərər verəcək addımlardan çəkinməlidir. Onlar əvvəla işçiyə sosial partnyor kimi baxmalı və işçinin sağlamlığına vura biləcək ziyana görə məsuliyyət daşıyır. O həm də öz məsuliyyətini sığortalamalıdır. Amma hər bir halda məsuliyyət işəgötürənin üzərindədir.

Dövlət Əmək Müfəttişliyi Xidməti belə havalarda işəgötürənlərə xəbərdarlıq edir. Amma onların hazırda yoxlama funksiyası yoxdur. Lakin öz işlərini görürlər və şikayətlər olduqda da dərhal reydlər edirlər. Amma hər bir halda əsas olan işəgötürənin vicdanı məsələsidir. İşəgötürən işçisinə qul kimi baxırsa, sosial partnyor kimi baxmırsa, işçiləri təhlükəli havada da işlədəcək".

***Ayşən Vəli***



# Dmitri Solonnikov:

# “İrəvan Laçın dəhlizini açıq, Zəngəzur dəhlizini bağlı saxlamağa çalışır”

***Rusiyanın Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Caliber" analitik mərkəzinə müsahibəsində Zəngəzur dəhlizi ətrafında yaranmış vəziyyətlə bağlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Mən Türkiyə və Rusiya prezidentlərinin bu ay gözlənilən görüşünün bir sıra məsələləri ilə bağlı fikirlərinizi eşitmək istərdim. Xüsusilə, sizcə, bu layihənin həyata keçirilməsi həm Moskvanın, həm də Ankaranın maraqlarına uyğundursa Zəngəzur dəhlizi ilə bağlı ciddi irəliləyiş, daha doğrusu onun açılışını gözləməyə dəyərmi?*

- Təbii ki, Zəngəzur dəhlizinin açılması həm Rusiyanın, həm də Türkiyənin maraqlarına uyğundur və biz Şimal-Cənub marşrutundan danışanda daim prezident Vladimir Putinin çıxışlarını xatırlayırıq, burada söhbət təkcə Baltikyanıdan Azərbaycan və İran vasitəsilə Fars körfəzinə və oradan Hind okeanına çıxışdan getmir, həm də onun ikinci hissəsi haqqında - Azərbaycan vasitəsilə həyata keçirilməsini arzuladığım marşrutlar haqqında danışılır. Bu, ilk növbədə, Ermənistan ərazisindən keçməklə Naxçıvana, oradan da Türkiyəyə və Aralıq dənizi limanlarına gedən Zəngəzur dəhlizidir. Bu, son dərəcə mühüm layihədir və 2020-ci ildə Putin, Əliyev və Paşinyan tərəfindən Üçtərəfli Bəyanat imzalananda, xüsusilə onun tezliklə açılacağı müzakirə olunub.




Ancaq 3 ilə yaxın vaxt keçib, dəhliz yoxdur və demək olmaz ki, biz bu layihənin icrasına daha da yaxınlaşmışıq. Daha doğrusu, biz ondan uzaqlaşmışıq. Hazırda Laçın yolu ərazisində vəziyyətin gərginləşməsi onu deməyə əsas verir ki, Ermənistan Zəngəzur sistemini ikinci və ya üçüncü mərhələyə buraxaraq Azərbaycana beynəlxalq təzyiq ssenarisini həyata keçirməyə çalışır. Bir neçə ay əvvəl Moskvada keçirilən danışıqlarda logistika marşrutlarının açılması mövzusu qaldırılmışdı, lakin son həftələrin hadisələri göstərir ki, İrəvan sərt təxribatlar siyasətini buraxmır, Rusiya sülhməramlılarını ora cəlb etməyə çalışır. Bakıya beynəlxalq təzyiq yaratmaq, Laçın yolunun açılmasını təşkil etmək və Zəngəzur dəhlizi mövzusunu sonraya saxlamaq, əslində bu dəhlizə heç kimi heç vaxt buraxmamaq. Ona görə də Putin və Ərdoğan, təbii ki, bu problemi də müzakirə edə bilərlər, lakin onların Ermənistanın baş nazirinə real təzyiqləri olmadığından, yaxın gələcəkdə layihə praktiki olaraq həyata keçirilə bilməz.

*- Sizin hesablamalarınıza görə, Rusiya Federasiyası taxıl müqaviləsinə qayıda bilərmi və əgər belədirsə, hansı şərtlərlə bu layihədə iştirakını bərpa edə bilər?*

- Rusiyanın birmənalı mövqeyi ondan ibarətdir ki, o, bir il əvvəl ona aid olan bütün şərtlər yerinə yetirilən kimi taxıl müqaviləsinə qayıtmağa hazırdır. Swift-in Rusiya banklarının, ilk növbədə Rusiya Kənd Təsərrüfatı Bankının işinə qoyulan məhdudiyyətlərin aradan qaldırılmasını, gübrə, taxıl, ərzaq daşıyan Rusiya gəmilərinin sığortasının bərpasını nəzərdə tuturam. Və təbii ki, ərzaq daşıyan rus gəmilərinin dünya üzrə sərbəst hərəkəti, bir sıra limanlarda Rusiya gübrələrinə qoyulan həbsin götürülməsi. Bütün bunlardan sonra, bəli, Rusiya taxıl müqaviləsinə qayıdacaq. Təəssüf ki, Ərdoğan, Quterreş və digər iştirakçılar bu şərtləri təmin etdirə və bu məsələni həll edə bilmir. Ona görə də çox güman ki, Rusiya Federasiyasının bu razılaşmaya qayıtması olmayacaq.




*- Hələ də Türkiyənin vasitəçiliyi ilə Rusiya Federasiyası ilə Ukrayna arasında danışıqların bərpası şansı varmı?*

- İndiki vəziyyətdə Ukrayna ilə danışıqların bərpası yəqin ki, mümkün deyil- nə Türkiyənin vasitəçiliyi ilə, nə də Braziliya, Çin və ya Afrika dövlətlərinin vasitəçiliyi ilə. Moskva birmənalı şəkildə başa düşür ki, Ukraynanın arxasında duran qüvvələr onun Rusiyanı hərbi yolla məğlub etməyə qadir olduğuna inanır və buna görə də Rusiya Federasiyasının kapitulyasiyasına ümid edərək heç bir danışıqlar aparmaq istəmir. Qərb ictimaiyyəti böyük qarşıdurmada Rusiyanın qalib gələcəyini, Ukraynanın isə uduzacağını anlayaraq bilərəkdən bu münaqişəni qızışdırdı. Və Qərbdə heç kimin Ukraynaya yazığı gəlmədiyinə və orda onu istehlak materialı hesab etdiyinə görə, müvafiq olaraq, nəyisə razı salmağın mənası yoxdur. Birləşmiş Ştatlar bu münaqişədə daha da varlanır və Ukraynanın itirilməsi beynəlxalq siyasət üçün hansısa sistem əhəmiyyətli faktor deyil. Deməli, hər şey davam edəcək- Qərb Rusiyanı məğlub edəcəyində israr edəcək və hələlik bu istiqamətdə heç bir irəliləyiş görünmür.




*- Ərdoğan-Putin görüşündə Suriya mövzusunun müzakirəsinə ehtimal verirsinizmi?*

- Suriya mövzusu da gündəm ola bilər, baxmayaraq ki, indi nə Rusiya Federasiyası, nə də Türkiyə üçün hazırkı reallığın ilk səhifələrində açıq-aydın yoxdur. Ona görə də danışıqlarda bu mövzunun aktual olacağını düşünmürəm.

*- Sizcə, Türkiyə-Rusiya münasibətlərində hər şey yolunda gedirmi və onların gələcəyini necə görürsünüz?*

- Bu, strateji əlaqələrdir. Və burada iki məqam var. Birincisi, Türkiyə və Rusiya uzunmüddətli perspektivdə çoxqütblü dünyanın yaradılmasının, hər iki ölkənin öz maraqları zonasında öz siyasətini və qonşu dövlətlərlə münasibətlərini müəyyən edən tam müstəqil dünya aktyorları olmasının tərəfdarıdırlar, nəinki yalnız bir sıra dövlətlər üçün əlverişli olan Vaşinqtonda tərtib edilmiş ssenarinin. Strateji baxımdan Rusiya və Türkiyə yaxınlaşır, ona görə də bizim tərəfdaşlıq münasibətlərimiz olacaq.

Hazırkı texniki məqama gəlincə, nəzərə almaq lazımdır ki, Türkiyədə iqtisadi böhran kifayət qədər güclüdür və Ankara ABŞ-ın köməyi ilə bunun öhdəsindən gələcəyini gözləyir. Anladığımız kimi, Bayden artıq BVF vasitəsilə milyardlarla dollar vəd verib. Bu baxımdan Türkiyə bu öhdəliklərlə bağlı olacaq. İsveçin NATO-ya daxil olması, taxıl sövdələşməsi məsələsi və Ankara ilə Vaşinqton və onun müttəfiqləri arasında razılaşmaların əldə olunduğu bir sıra digər məqamlar da daxil olmaqla, mürəkkəb razılaşmalar sistemi mövcuddur. Türkiyə, bir qayda olaraq, ABŞ-ın üzərinə götürdüyü öhdəliklər yerinə yetirilməyənə qədər verdiyi vədləri yerinə yetirmir. Yəni Türkiyə ABŞ-la münasibətlərini bu cür qurur, Rusiya da o biri dünya ilə belə davranmalıdır.



Ona görə də Rusiya ilə Türkiyənin strateji baxımdan çoxlu ortaq cəhətlərin olduğunu nəzərə alaraq, biz bir sıra uzunmüddətli layihələr üzərində birgə hərəkət edəcəyik. Amma hazırda Türkiyənin ağır iqtisadi vəziyyəti Ərdoğanı daha çox ABŞ siyasətinə diqqət yetirməyə vadar edir və bu, artıq obyektiv reallıqdır.

***Tərcümə - Elçin Bayramlı***

# Dağıdıcı müxalifətin sonu görünür





Azərbaycanın 44 günlük Vətən Müharibəsində Ermənistan üzərində hərbi qələbə qazanaraq ərazilərimizi işğaldan azad etməsi regionda yeni reallıqlar yaradıb. Bu reallıqları bəzi ermənilər müəyyən məsələlərdə qəbul etsələr də, xarici maraqlı dairələr öz məkrli və hikkəli iddialarını Paşinyana yeritməklə, bölgədə vəziyyəti gərginləşdirməyə çalışırlar. Laçın sərhəd keçid məntəqəsində Qarabağdakı ermənilərə humanitar yardım adı altında nəqliyyat vasitələrini cəmləşdirməsi, növbəti təxribata cəhddən başqa bir şey deyil. Ermənistanın bu addımla siyasi şou və siyasi möhtəkirlik nümunəsidir. Diqqətçəkən məqam ondan ibarətdir ki, Paşinyan və onun himayədarlarının qurduqları tamaşada Azərbaycanın dağıdıcı müxalifəti də bu və digər formada iştirak etməyə çalışırlar. Məsələn, "Milli Şura"nın sədri Cəmil Həsənli ingilterəli qudası kimi düşüncə ortaya qoyaraq iddia edir ki, "Laçın sərhəd keçid məntəqəsi vasitəsilə Xankəndidəki ermənilərə humanitar yüklərin aparılması sülhə gedən yolda müsbət nəticələr verə bilər". Sevinc Osmanqızının TV-sinə verdiyi müsahibəsində isə Azərbaycanı Avropa İttifaqı ilə jantaj etməyə çalışır. Deyir ki, "Azərbaycan sərhəd keçid məntəqəsini Avropa İttifaqının nümayəndələrinin gözü qarşısında bağlamaqla beynəlxalq təşkilatı ölkəmizə qarşı qərarların qəbul edilməsinə vadar edir". "Milli Şura"nın sözçüsü rolunda çıxış etməyə adət edən Tofiq Yaqublu isə açıq şəkildə ermənilərin əmisi uşaqlarından olduğunu göstərən açıqlama ilə çıxış edir. Bildirir ki, "Zəngəzur dəhlizi Azərbaycanın avantürasıdır". Başqa bir açıqlamasında qeyd edir ki, "Qarabağdakı ermənilərə status verilməlidir". T.Yaqublu sabah Meşəli cəlladı Vaqif Xaçaturyanın "hüquqlarının müdafiəsi" ilə bağlı aksiya keçirməyə çalışsa və ya xarici qaranlıq dairələrə çağırış etsə, təəccüblü görünməyəcək. Çünki o V.Xaçaturyan həbs edilib Bakıya gətirilərkən, onun həbsinin yolverilməz olduğunu bildirmişdir. AXCP sədri Əli Kərimli isə birbaşa Koçaryan, Sarkisyan, Artunyan, Vardanyan kimi sözlər deyir və fikirlər səsləndirir.

### Dağıdıcı müxalifət erməni dığaları kimi revanşist fikirlər səsləndirir

Sapı özümüzdən olan baltaların erməni maraqlarından çıxış etmələri onu deməyə əsas verir ki, onlar erməni lobbisindən böyük məbləğdə maliyyə yardımları alırlar. Necə ola bilər ki, Laçın sərhəd keçid məntəqəsi yaxınlığında ermənilər tamaşa qurur və bu tamaşaya iştirakçıları cəlb etməklə Azərbaycanın dünyada sülhpərvər və azad, demokratik dövlət imicinə xələl gətirməyə çalışır Ə.Kərimli, C.Həsənli, T.Yaqublu və digərləri də onlarla əqidə yoldaşlığı edir? Belələrinə azərbaycanlı demək olarmı? Belə məxluqlar necə "mən də Azərbaycan xalqının nümayəndəsiyəm" deyə bilər? Hansı haqla, qalib Azərbaycan xalqının insanlarından olduqlarını iddia edə bilərlər?

Dağıdıcı müxalifətin işi erməni dığaları kimi revanşist fikirlər səsləndirməklə və ya sərhəddə şou yaratmaqla Azərbaycana qarşı təhdid siyasətinə yoldaş olmaqla bitmir, həm də ölkə daxilində müxtəlif səhnələşdirilmiş məzhəkələr yaratmaqla xalqa meydan oxuduqlarını açıq şəkildə nümayiş etdirirlər. Gah deyirlər ki, "Siyasi partiyalar haqqında qanun" demokratik müddəalara ziddir, gah iddia edirlər ki, Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunaraq Nərimanov rayon Məhkəməsinin qərarı ilə barəsində 3 ay 26 gün müddətinə həbs qətimkan tədbiri seçilən Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlunun həbsində qeyri-qanuni hərəkətlərə yol verilib. Ancaq bir dəfə də olsun ictimai rəyin mövqeyini əsas gətirərək deməyiblər ki, Q.İbadoğlu ilə bağlı istintaq araşdırması aparılsın və bütün suallara cavab verilsin. Halbuki, Q.İbadoğlunun qardaşı, deputat Vüqar Bayramov bildirib ki, araşdırmalar obyektiv aparılacaq və hüquqi dövlət prinsiplərinə uyğun ədalətli qərar qəbul ediləcək. V.Bayramov qardaşının həbsi üzərindən siyasi divident qazanmağa çalışanları da ittiham edib. Bildirib ki, ölkədən kənarda olduğum müddətdə cəmiyyətdə ciddi qəbul olunmayan bir sıra fiqurlar və xəbər portalları tərəfindən yayılan spekulyativ açıqlamalar, sadəcə, təəssüf doğurur.

### Q.İbadoğlunun cinayət əməlini sübut edən yeni faktlar üzə çıxmaqdadır

Artıq sular durulmağa və Q.İbadoğlunun cinayət əməlini sübut edən yeni faktlar üzə çıxmaqdadır. Eyni zamanda, cinayətdə rolu və fəaliyyəti olan şəxslər də həbs olunmaqdadırlar. Sosial şəbəkələrdə Qubad İbadoğlunun işi ilə əlaqədar Fazil Qasımovun Türkiyədə saxlanılaraq Azərbaycana gətirilməsi və həbsi ilə bağlı məlumatlar yayılıb. Məlumatı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən təsdiqləyiblər. Bildirilib ki, cinayət işi ilə əlaqədar axtarışda olan Fazil Qasımov ölkəyə gətirilərək DİN əməkdaşları tərəfindən həbs olunub və istintaqa təhvil verilib. Bundan sonra dağıdıcı müxalifət funksionerlərinin Q.İbadoğlu ilə bağlı fikir söyləməyə haqları yoxdur.

Çünki, ortada kifayət qədər dəlil və sübutlar mövcuddur. Təsdiq olunmaqdadır ki, Q.İbadoğlu mütəşəkkil dəstənin fəal üzvlərindən olmaqla saxta pul və ya qiymətli kağızlar hazırlama, əldəetmə və ya satma cinayətində iştirak edib. Özlərinə hörmət etsələrdi, əsassız hay-qaldırdıqlarına görə Ə.Kərimli, T.Yaqublu, C.Həsnli və digərləri KİV vasitəsi ilə ictimaiyyətdən üzr istəyərdilər. Lakin görünən ondan ibarətdir ki, müxalifət siyasi mədəniyyətə və demokratik düşüncəyə sahib deyil. Onlar üçün əsas məqsəd və fəaliyyət xarici ağalarından verilən tapşırıqdır. Müstəqil olmayan müxalifət təbii ki, məhvə məhkumdur. Necə ki, artıq onun ilkin işartıları görünməkdədir. Yəni, yaxın vaxtlar da xalqın maraqlarına zidd siyasət yürüdən bəzi müxalif partiyalar ya fəaliyyətlərini dayandıracaq, ya da hansısa digər partiyalara birləşəcəklər.

**İ.ƏLİYEV**

# Afrikada böyük müharibə getdikcə yaxınlaşır

Nigerdəki hərbi çevrilişdən təxminən iki həftə sonra, bir sıra Qərb və Afrika ölkələri hələ də hakimiyyəti zorla devrilmiş prezident Məhəmməd Bazuma qaytarmaq planlarını həyata keçirirlər. "Səs" qəzeti Qərbi Afrika İqtisadi Birliyinin (ECOWAS) yüksək rütbəli komandirinə istinadən yazır ki, alyansın hərbi kontingentinin Nigerə yeridilməsinə hazırlaşmaq üçün daha çox vaxta ehtiyacı var.

Bundan əvvəl ECOWAS hərbçilərə Bazumu azad edib hakimiyyətə qaytarmaq üçün bir həftə vaxt vermiş, o, bundan imtina edərsə, güc tətbiq edəcəyi ilə hədələmişdi. Ultimatumun müddəti bitib, lakin hələ də real addım atılmayıb. Eyni zamanda Nigerə hərbi müdaxilə planı həqiqətən də razılaşdırıldı. Həqiqi işğal təhlükəsi fonunda üsyançılar hətta ölkənin hava məkanını bağlamaq qərarına gəliblər.

"Qonşu ölkələrin hazırlıqları səbəbindən getdikcə aydınlaşan müdaxilə təhlükəsi ilə üzləşən Niger hava məkanı bazar günündən etibarən növbəti xəbərdarlığa qədər bütün təyyarələr üçün bağlanıb" dedi.

Nigerin paytaxtının stadionunda hakimiyyəti ələ keçirən




hərbi şura üzvləri.

NATO-nun Avropadakı keçmiş baş komandanı Ceyms Stavridis Nigerdəki vəziyyətin Afrikada genişmiqyaslı müharibəyə çevrilə biləcəyini etiraf edib. Onun fikrincə, bunun üçün potensial var, baxmayaraq ki, belə bir münaqişə "əhəmiyyətli və dağıdıcı hadisə" olardı.

Nigeriya Senatı ECOWAS-ı Nigerdəki vəziyyəti həll etmək üçün diplomatik həll yolları axtarmaq üçün son çarəyə çağırıb. Eyni zamanda, BƏƏ "terrorla mübarizə və sərhəd təhlükəsizliyi səylərini dəstəkləmək üçün" Çada hərbi texnika və avadanlıq göndərib. Nigerin baş naziri Ahmoudou Mahamadou da ölkədə cihadçıların mümkün aktivləşməsindən danışıb.

Bölgədə artan gərginliyi nəzərə alaraq, Nigeriya hakimiyyəti ordunu tam hazırlıq vəziyyətinə salıb. Liviya isə Nigerlə sərhədin təhlükəsizliyini gücləndirmək qərarına gəlib və sərhəd keçid məntəqələrində patrulları artırıb.



**MƏTANƏT**

# Görək ki, görə bilək...

**Bu gün bütün dünyanın baxmağa deyil, görməyə ehtiyacı var. Elə bu səbəbdən də avqustun 8-nin dünyada Beynəlxalq Oftalmoloqlar Günü kimi qeyd olunması təqdirəlayiqdir. Çünki görmək gözlə bağlıdır. Görməmizin keyfiyyəti isə məhz oftalmoloqlardan asılıdır. Elə bu əlamətdar gün də oftalmologiyanın problemlərinə, əhali arasında görmə problemlərinin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsinə yönəldilir ki, insanlar yaxşı görsünlər.**

Bizim yaxşı görməyə çox ehtiyacımız var. Ona görə ki, yaxşı görəriksə, sadəcə baxmarıq, həm də görərik. Məsələn, görərik ki, biz insanlar ekologiyanın qənimləriyik. Bax bu isti yay günlərində xilaskarımız olan dənizin, çimərliklərin, təbiətin düşmənləriyik. Lakin bunu görə bilmirik, yaxşı görsək, görə bilərik. Görərik ki, ayağımızı haraya qoyuruqsa, orada əvvəlki vəziyyətdən əsər-əlamət qalmır. Biz gedirik, bizdən sonra yerdə izlərimiz qalır. O izlər ki, nə siz soruşun, nə mən deyim...

Bizim yaxşı göz həkimlərinə ehtiyacımız var ki, həqiqətən də ölkəmizdə çox gözəl oftalmoloqlar var. Hansısa bir göz xəstəliyi üçün müraciət etdikdə, problemimizi köklü həll edən həkimlərimiz var. Biz nə etməliyik, hər hansı xəstəliklə qarşılaşdığımız an onlara müraciət etməliyik. Çünki göz elə bir həssas orqandır ki, onunla zarafat olmaz. Həm də bizim sağlam gözə ehtiyacımız var ki, yaxşı görə bilək. Görək ki, dünən dünəndə qalmaqdadır. Dünəndən bu günə ta artıq heç nə daşımamaqdayıq. Adət-ənənələrimizi, ailə dəyərlərimizi, geyim, danışıq, küçə mədəniyyətini göz görə-görə dünəndə qoyub bu günlərə gəlməkdəyik. Allah eləməsin, kor deyilik, baxırıq, lakin acı həqiqətləri necə, görə bilirikmi? Görürükmü ki, biz ta biz deyilik, başqalaşırıq...

Bizim yaxşı görməyə ehtiyacımız var, tək bizim deyil, bütün dünyada insanların. Ona görə ki, yaxşı görəriksə, ətrafa da göz gəzdirə bilərik. Heç uzağa getməyək, özümüzdən danışaq. Məsələn, dünyanın gözləri yaxşı görərsə, bizim qonşuluqdan kənar qonşumuzun nə olduğunu çoxdan görmüş olardı. Onların müdafiəsinə qalxmazdı. Haqsızlığın ayaq tutub yeridiyi dünyada bu ayaqları qırardı. Fransa, İran, nə bilim, hara, erməni ədalətsizliyinə kor-koranə yanaşmazdı. Biri dünyanın o başından, biri bu başından ətrafa gözləri duran yerdə əlləri ilə təmas etməkdən çəkinərdilər.

Bizim görməyə ehtiyacımız var ki, hər şeyi görə bilək. Görə bilək ki, bu dünya əzəli dünya deyil. Ətrafa xəstəliklər səpən dünyadır. "Burada mən, cənnətdə kor xəlifə" iddiasında olan dünyadır. Bu səbəbdən də zalım dünyadır. Acımadan yox edən, özünə dartan, "mənimdir",- deyən dünyadır. Görsək, görə bilərik ki, bu dünya yaman fani dünyadır. Bu faniliyi insanlara da yansıdan dünyadır. Bax bizim müxalifətdə olanlar kimi... Görsələr, görə bilərlər ki, öz vətəndaşlarının xoşbəxtliyinə müxalifdirlər. Ölkələrinə, torpaqlarının bütövlüyünə müxalifdirlər. 30 ildən artıqdır ki, özlərini görə bilmədikləri üçün arzular qanadında göylərdədirlər. Qulağımızın dibindəcə ermənin tərəfindədirlər. Onlara gün ağlamaqdadırlar. Soydaşlarımıza onların bəxş etdiyi qara günləri unutmaqdadırlar. Elə bu səbəbdən də bir qərinə yolumuzu kəsənə yol istəyirlər. Bir qərinə ocağımızı söndürənə gün istəyirlər.

Görmək... Nə böyük xoşbəxtlikdir, İlahi. Bu əlamətdar gündə gözlərimizə işıq bəxş edən oftalmoloqlara, gününüz mübarəkdir, deyək. Onlara cansağlığı, fəaliyyətlərində uğur arzulayaq ki, görmə problemlərimizin aradan qalxmasında müstəsna xidmətləri davam etsin. Çünki bizə görmək vacibdir. Görməliyik ki, görə bilək. Görə bilməsək, nə dostu, nə düşməni tanıyarıq...

# Oxuyaq?.. Oxumayaq?..

***9** avqust Dünya Kitabsevərlər Günüdür. Elə bu əlamətdar günün fonunda fikirləşməyə dəyər: kitab bu gün nə qədər sevilir? Kitabsevərlərin sayı necə, əvvəlki illərdəki qədər varmı? Əslində kitab nədir?*

Kitab... Deyərdim ki, dünyada yaradılmış ən dəyərli vasitədir. Kitab insanın ən yaxın dostu, ömrünün bəzəyidir. Kitab sirdaşdır, hər an pıçıltılarını dinləyən, sənə düzgün yol göstərən əsl dost. Kitab vaxtdır, bəzən ilişib qalan saatları sürətlə irəliyə doğru aparan, günün haradan gəlib haraya getdiyindən insanı bixəbər edən vasitədir.

Hər kəsin yanında olub, bir gün səndən uzaqlaşdığı təqdirdə kitab səninlə qalan, dərd-sərinə şərik olan vasitədir. Kitab milyonlarla insanla tanışlıqdır. Minlərlə insan taleyi ilə tanışlıqdır. Düz yolun göstəricisi, əyri yolun düşmənidir.

Kitab xarakterdir. İnsan xarakterinin düzgün formalaşmasında tərbiyəedicidir. Nəyi necə etməyi göstərən, nəyi harada danışmağı öyrədən müəllimdir. Əməyi, zəhməti misilsiz olan müəllim. Haqqı ödənilməyən öyrədicidir.

Kitab yol yoldaşıdır. Hər an yanındadır. Dünyanın harasında olsan, hansı səbəbdən olsan, yanında tək olandır. Səni tək qoymayan, darıxmaqdan uzaq saxlayan, münasib olmayan dostluqlardan çəkindirən yoldaşdır. Harada gəldi dərdini sonadək dinləyən, yaralarına məlhəm olan yolyoldaşıdır.

Kitab taledir. Mənim, sənin, hamımızın taleyidir. Bir-birimizə sirrimizi-sözümüzü deməkdiyimiz halda, kitab bizləri bir-birimizin taleləri ilə tanış edən vasitədir. Kiminsə taleyinə acıdığımız, kiminsə taleyinə sevindiyimiz, pisi pis, yaxşını yaxşı kimi tanıdıran, öyrədəndir.

Kitab xatirədir. Uşaqlıqdan gəncliyə, gənclikdən ahıllığa ərməğan olan xatirələr toplusudur. Bir dəfə səhifələrində gözlərin gəzəndən sonra ikinci dəfə əlinə aldığında səni gənclikdən uşaqlığa, ahıllıqdan gəncliyə aparan xatirədir.

Elə bütün bu səbəblərdən də kitab hər birimiz üçün dəyərlidir. Çünki o bizim də dostumuz, yoldaşımız, sirdaşımız, yolyoldaşımız, taleyimiz, xatirələrimiz olub. Kimsəyə deyə bilmədiyimiz sözümüzü dinləyənimiz olub. Qəhrəmanlarının taleyinə öz dərdlərimizi də qarışdırıb göz yaşını axıtdığımız səhifələrdir. Gecəni sübhədək ayrıla bildiyimiz yuxumuzdur. Dünyanın ən şirin neməti olan yuxunu illərlə qurban verdiyimiz varlıqdır. Qəhrəmanları həyat idealımıza çevrilən, bizi peşəyə, sənətə, həyata yönəldən varlıq...

Deyərdim ki, kitab ana laylasının davamıdır. Körpəykən ana laylasıyla dinclik, sakitlik, məlhəm tapdığımız halda, ömrümüzün sonrakı çağlarında bu laylaları yeganə əvəz edə bilən kitablardır. Ana laylalarına qulaq kəsib ağlamamışıq, bir də kitablarla evlərimizdə varlığımız-yoxluğumuz hiss olunmayıb. Çəkilmişik bir guşəyə, burada onunla-ikinci ana laylasıyla baş-başa qalmışıq. Ruhumuza qida olub kitablar, ana südü tək qidamız olub. Kitab oxuyanlar xatırlayar, hansısa bir kitab səni özündən alıb elə aparıb ki, gün ərzində aclıq hissi belə duymamısan. Belə isə ən gözəl qidadır kitablar.

Kitab arzudur, bu arzuya qurulan xəyaldır. Gələcəyin, sabahındır. Qəhrəmanlarının səni səslədiyi həyat yoludur. Onlara bənzəyən həyat yolunu qurmaqda səni ruhlandıran, yolgöstərəndir. Mübarizlikdir kitab. Həyatla, haqqınla, insanlarla mübarizədir. Bütün bunları necə etməyi öyrədəndir.

Kitab bir filmdir, oxudunmu, sanki bir filmə baxdın, bir hadisənin içərisində oldun, onun qəhrəmanlarınla birgə yaşadın. Kitab bir mahnı, bir şeirdir, necə ki, bir musiqi, bir parça şeir səni səndən alıb aparır, kitab da elədir. Saatlarla gedirsən, bəzən keçmişə, bəzənsə gələcəyə...

Bu qədər gözəlliklərə malik kitabı bəli, illər öncə çox sevirdik. Elə bu sevgi də bizi kitabsevərə çevirmişdi. Lakin indi necə, onu malik olduğu dəyərlərə cavab verəcək qədər sevirikmi? Kitab yenədəmi bizim üçün arzu, xatirə, xarakter, film, ana laylası olaraq qalırmı? Xeyr, qalmır. Kitab əsla dəyişməyib, biz isə çox dəyişmişik. Kitab yenə də söylədiklərimizin hər birini özündə ehtiva etsə də, lakin artıq müasir cəmiyyətimizdə onu bu cür qəbul edənlərin sayı olduqca azdır. Çünki








## "Kitab oxumağa vaxt yoxdur"

İndi çoxları "kitab oxumağa vaxt yoxdur" deyir. Görəsən nə üçün yoxdur? Bəs əvvəllər niyə var idi? Yoxsa fəsillərmi dəyişib günlərin əlindən saatları alıb, gecələri öz qaranlığında itirib-batırıb? Nə olub axı? Axı bunların heç biri olmayıb. Olan bizə olub. Müasir texnologiyanın qurbanlarına çevrilmişik. Sosial şəbəkələr fəsilləri də, ayları, həftələri, günləri, saatları da əlimizdən alıb. Bizi özünə elə bağlayıb ki, ondan savayı heç nəyə vaxt tapmırıq. Hansı ki, orada itirdiyimiz boş vaxtları kitab oxumaqla mənəvi aləmimizi zənginləşdirə, əvvəlki ənənələrimizi qoruya bilərdik.

Lakin biz bunu etmədik. Bir axına qoşulduq. Axdıq o qoşunla, kitablar bizdən kənarda qaldı. Bu axın bizi bambaşqa bir dünyaya aparıb çıxardı. O dünyada nə kitab var, nə də bir vərəq. Orada yalnız hərəmizin əlində bir telefon var. O telefon isə bizim qəsdimizə dayanmaq üçün əlimizə verilib: sağlamlığımızı əlimizdən almaq, ailə, mənəvi, əxlaqi dəyərlərimizi oğurlamaq, keçmişlə bağımızı qoparmaq üçün...

Sabah təəssüf edəcəyimiz, özümüzü bağışlamayacağımız bu kimi mənzərələr hazırda həyatımıza hakim kəsilib. Bu səbəbdən də vaxt tapıb kitab oxuya bilmirik. Günahı da vaxtın üzərinə səpələyirik. Hansı ki, vaxtın da, zamanın da qatili özümüzük. Gündəlik saatlarımızı nəyə sərf etməyi, planlaşdırmağı lap çoxdan unudan özümüz...

## Kitab oxumağa vaxt ayıraq...

Hansı şəkildə, formada yaşamağımızdan asılı olmayaraq kitab oxumağa vaxt tapa bilərik. Hər gün saatlarla gəzdiyimiz sosial şəbəkələrdə də kitab oxumaq mümkündür. Oxuyanlar da var. Lakin boş vaxt keçirənlər, sosial şəbəkələrdən nə üçün istifadə etdiyini bilməyənlər üstünlük təşkil edir. Buradakı videolar, xəbərlər, boş söhbətlər, əttökən canlı yayımlara həsr olunan vaxtla neçə-neçə kitab oxuyub faydalanmaq olar. Lakin bunu etməyən minlərlə adam var ki, Youtube, Tiktok, Fecebook kimi sosial şəbəkələrdə nə etdiyini də bilmir, bir də baxır ki, gün bitir, vaxt ötüb keçib.

Bax elə heç olmasa, günün sonunda özümüzə bir sual və onun cavabını verməyi bacaraq ki, bir gün ərzində nə etdik. Qazancımız nə oldu? Sosial şəbəkələrdən necə faydalandıq. Əgər belə olarsa, inanın, çoxları bu sualın cavabını verə bilməyəcək. Çünki orada nə etdiyini özü də bilmir. Faydalı şəkildə istifadə edənlər isə orada kitab da oxuyurlar ki, bu, ən vacib, ən əsas olandır.

Kitab bizim dünənimizdən bu günümüzə gələn vərdişdir. Biz kitaboxuma kimi gözəl vərdişi vaxtilə əldə etmişik. İndi bu qədər dəyərli vərdişi nə üçün itirməliyik. Nə üçün kitabsevər deyil, sosial şəbəkəsevər olmalıyıq?

Axı kitablardan öyrəndiklərimiz çox olub. O zaman-zaman ən yaxın, həm də faydalı dostumuz olub. Sirdaşımız olub ki, heç kimə deyə bilmədiyimizi ona pıçıldamışıq. Yolgöstərənimiz olub ki, hansısa qəhrəmanımıza oxşamaq üçün gözəl bir həyata başlamışıq. Hansısa bir qəhrəmana nifrət edərək getmək istədiyimiz yoldan çəkinmişik. Elə bütün bunlara görə də orta nəsil kitabsevər olub. Bəs gənc nəsil necə, biz bu estafeti onlara verə bilməyəcəyikmi? Onda belə başa düşülür ki, biz bacara bilmədik? Övladlarımızı yolumuzu davam etməyə alışdıra bilmədik? Yoxsa övladlarımız bizdən çox cəmiyyətə oxşamağa başlayıblar. Belə isə, çox təəssüf...

## Hədiyyələrimiz yalnız kitab olsun

Həyatda hər şey insan övladının əlindədir. O, həyatını da, həyat tərzini də istədiyi səmtə çevirməyi bacarandır. Lakin qarşısına məqsəd qoymalıdır. Bu məqsəd zamanın bütün məqamlarında insanın köməkçisi olub, onunla hədəfə doğru birgə addımlayıb.

Biz hədəf olaraq kitabı seçsək, inanıram ki, kitaba qarşı illər öncəki münasibəti də bərpa etmiş olarıq. Onu oxumaq üçün vaxt ayırarıq. Sosial şəbəkələrə verdiyimiz saatları bir qədər azaldıb kitab oxumağa sərf etməklə buna nail ola bilərik. Beləliklə də kitab oxumaqla bağlı ən aşağı göstəricilərimizi də yuxarı qaldırmış olarıq. Sorğular zamanı ortaya çıxan utandırıcı rəqəmləri dəyişə bilərik.



Bunlara nail olmaq üçün ilk növbədə, həm də bir-birimizə kitab hədiyyə etməliyik. Xüsusilə də uşaq və gənclərimizə. Bu, unudulmaqda olan kitab oxumanı sürətləndirə, ona maraq artırmış olar. Bəzən bir hədiyyə üçün bahalı mağazalara qaçır insanlar. Məktəblərdə müəllimlərə bayram, ad günü, müəllimlər günü hədiyyəsi almaq üçün valideynlər yarışa girirlər. Lakin bunların hər birini bir kitabla əvəzləşdirmək olar ki, o da həm uşaqlarımızın təfəkkürünü korlamağımızın qarşısını alar, həm də kitab anlayışını gündəmdə saxlayar.

Bir-birimizə kitab hədiyyə edək. Uşaqlarımıza, gənclərimizə tez-tez kitab hədiyyə edək. Kitabi onların təfəkkürünə ən layiqli hədiyyə kimi yerləşdirək. Belə olarsa, kitab oxumaqda da irəliləyişin olduğunu müşahidə edərik. Dünəndən qalan ənənələrimizi yaşatmış olarıq.

Uşaqların tərbiyəsində biz valideynlərdən çox şey asılıdır. Biz onlara istədiyimiz məqamları verə də bilərik, ala da. Belə isə həm onların yanında kitab oxuyaq ki, onlar da oxusunlar, həm də onlara kitab hədiyyə edək ki, ən dəyərli hədiyyənin kitab olduğunu beyinlərinin bir küncünə yerləşdirsinlər. Əks təqdirdə illər sonra kitabsevərlər günü deyilən bir günün təqvimdən silinməsi sözsüzdür.

Kitab alaq, kitab oxuyaq, kitab hədiyyə edək, kitab müzakirə edək...

***Mətanət Məmmədova***

# Dəniz suyunun zərəri və faydaları NƏDİR?

***Məlumdur ki, okeanların və dənizlərin suyu duzludur. Həmçinin, yer üzündə bəzi sular şirin, bəziləri isə duzludur. Bu səbəbdən bir çox insan dənizlərin niyə duzlu olması ilə maraqlanır və bunu araşdırır.***
SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Dəniz suyu niyə duzludur?

Dəniz suyunun duzlu olmasının bir çox səbəbi var. Əslində, şirin suda da bir az duz var. Yağış suyu da atmosferdən keçərkən bəzi maddələr toplayır. Bu maddələr çirkləndiricidir. Yağış təmiz havanı təmizləyir və torpağa kir göndərir.



Yağış suları torpaqdan və qayalardan keçərkən süzülür. Bu vaxt onun tərkibindəki maddələrin bir qismi əriyir və parçalanma prosesi baş verir. Bu zaman da içməli su şəklində də istifadə olunur. İçməli suda duzun sıxlığı çox az olduğu üçün duz dadı almırıq. Zamanla qayalardan və torpaqlar-



dan süzülmüş su böyük çaylarda və su yataqlarında toplanır. Dənizə və okeanlara 200-300 milyon il ərzində böyük miqdarda su tökülərək ona duzlu dad verir.

## İnsan səhvən dəniz suyunu udanda nə baş verir?

Üzdüyümüz zaman az miqdarda dəniz suyu udduqdan dərhal sonra şirin su içsək, duzlu su bədəndən xaric olur. Lakin dəniz suyunun çox udulması insan orqanizminə ciddi zərər verə bilər. İnsan duzlu su və ya



dəniz suyu içəndə sanki heç su içməyib. Bu, bədənin su itirməsinə səbəb olur.

Yay demək bol tətil deməkdir. Dəniz, qum və günəş hər kəsin istirahət etmək üçün ilk seçimidir. Dəniz kənarı olan istirahət mərkəzləri də tətilimizi əyləncəli keçirməyə səbəb olan məkanlardandır. Ancaq tətilimizi poza biləcək imkanlar həmişə baş verir. Gün vurması, gündə yanmaq və ya dəniz suyunun yaratdığı narahatlıq, təəssüf ki, tətilinizin ümid etdiyiniz kimi keçməməsinə səbəb ola bilər.



Üzərkən dəniz suyunun ağız və ya buruna daxil olması normaldır. Məlumdur ki, az miqdarda dəniz suyunu udmaq bizə ciddi zərər verməyəcək. Ancaq unutmaq olmaz ki, orqanizmə bir çox faydası olan dəniz suyunun həddindən artıq udulduğu təqdirdə çoxlu zərərləri də var.

Təxminən 3 faiz duzlu olduğu bilinən dəniz suyunun orqanizm tərəfindən xaric edilməsi çox çətindir. Çünki filtr kimi işləyən böyrək qandakı zərərli maddələri süzərək sidik kanalı vasitəsilə xaric edilmək üçün sidik kisəsinə göndərir. Ancaq böyrək bu vəzifəni yerinə yetirərkən, maksimum 2 faiz duzlu sudan sidik çıxara bilər. Yəni dəniz suyu içərkən insan orqanizmi bu suyun tərkibindəki duzu çıxarmaq üçün orqanizmdə mövcud olan sudan istifadə etməlidir.

Dəniz suyu içmək orqanizmə lazım olan suyu vermək əvəzinə daha çox suyun xaric olmasına səbəb olur. Orta hesabla, bir litr dəniz suyunu bədəndən çıxarmaq üçün bədənin ən azı bir litr yarım şirin su qəbul etməsi lazımdır.

## Həddindən artıq dəniz suyunun udulmasının nəticələri

Üzdüyümüz zaman udulmuş və bədəndən çıxarılan dəniz suyu ilə dərhal içilən az miqdarda şirin su ciddi zərər verməsə də, dəniz suyunun həddindən artıq istehlakı ciddi nəticələrə səbəb ola bilər. İnsan duzlu su və ya dəniz suyu içdikdə sanki heç vaxt su içməmiş kimi olur və bədənin su itirməsinə səbəb olur. Bu vəziyyətin təbii nəticəsi olaraq bədəndəki suyun nisbəti azalır və ağız quruluğu, əzələ ağrıları kimi fiziki təsirlər görünməyə başlayır.

Bu təsirləri aradan qaldırmağın ilk yolu bol içməli su istehlak edərək orqanizmi lazım olan su ilə təmin etməkdir. Əks halda, bədən su itkisini kompensasiya etmək üçün



qan damarlarında təzyiqi sıxır və ürək döyüntüsü sürətlənməyə başlayır. Ürəkbulanma və huşun itirilməsi kimi daha ciddi təsirlər ola bilər. Bu şəkildə uzun müddət susuz qalsanız, bədənin müdafiə sistemi çökür və beyinə daha az qan axmağa başlayır.

Təbii ki, bütün bu nəticələr dəniz suyunun çox udulması halında baş verir. Belə bir vəziyyətdə mümkün qədər tez mütəxəssisdən kömək istəmək tövsiyə olunur.

## Dəniz suyunun faydaları

Çox udulduqda ciddi zərər verə bilən dəniz suyu mineral tərkibi ilə də bir çox xəstəliyə dərmandır. İl ərzində uyğun vaxtlarda dənizdə üzmək bir çox problem üçün yaxşı nəticə göstərə bilər:

- Dəniz suyu dəridəki məsamələri açır,
- İmmunitet sistemini gücləndirir,
- Bədəndən toksinləri çıxarmağa kömək edir,
- Əzələləri rahatlaşdırır,
- Sakitləşdirici təsirə malikdir,
- Astma, bəlğəm, öskürək kimi tənəffüs yolu xəstəliklərinə xeyirlidir.

Duz və bir çox digər mineral və elementlər sayəsində dəniz suyunun xüsusilə dəri üçün bir çox faydası var. Dəniz suyu ilk növbədə nəmləndirici təsirə malikdir və maqnezium, kalsium və kalium kimi dəri



sağlamlığını dəstəkləyən bir çox elementi ehtiva edir.

Dəniz suyu dərini ölü hüceyrələrdən təmizləməyə kömək edir, duz isə dərideki yaraları təmizləyir. Bununla belə, əks effekt əldə etmək riski olduğu üçün onu normada istifadə etmək lazımdır. Dəniz suyu həm də aşındırıcı və stressi aradan qaldıran təsirə malikdir. Dəniz suyunda duzun olması dəridən ölü hüceyrələri çıxarmağa kömək edir, dərini aşındıran müalicə kimi yumşaldır və təmizləyir. Xüsusilə ayaqlar bu faydalardan çox yararlanır. Bunun üçün 20 dəqiqə üz-



mək kifayətdir.

## Dəniz suyunun sakitləşdirici təsiri

Dəniz suyunun tərkibindəki elementlərin stressin ümumi azalmasına kömək etdiyi də məlumdur. Bundan əlavə, dənizin sakitləşdirici təsiri və dalğaların səsi də bunu dəstəkləyir.

Bundan əlavə də dəniz suyunda üzməyin bir çox faydaları da var. Dərinin nəfəs alması ilə yanaşı, suyun tərkibindəki mənfi ionlar bədəndəki dəri vasitəsilə hərəkət edərək toksinləri xaric edir. Dəniz suyunun bütün faydalarından yararlanmaq üçün cəmi 20 dəqiqə kifayətdir.

Dəniz suyuna girdikdən 15 dəqiqə sonra genişlənən məsamələr natrium, maqnezium və ya kalium ionlarının keçməsini təmin edir. Bu ionlar hüceyrə regenerasiyasını gücləndirərək orqanizmə təsir edir.

Dəniz suyu qədim zamanlardan bir çox xəstəliklərin müalicəsində istifadə edilmişdir.

*Ardı Səh. 12*

ARAŞDIRMA

# Dəniz suyunun zərəri və faydaları NƏDİR?

Əvvəli Səh. 11

## Saç və dəri sağlamlığını yaxşılaşdırır

Dəniz suyunda təbii olaraq tapılan sink duzun müsbət xüsusiyyətləri ilə birləşərək dərinin qocalmasını gecikdirir və yaraların sağalma prosesini sürətləndirir. Soyuq tətbiq olunan dəniz suyu dəri və üzə tonik təsir göstərir. Dəriyə nəm və parlaqlıq verir, toksinləri xaric edir və aşındırıcı kimi fəaliyyət göstərir. Filterdən keçmiş dəniz suyu ekzema, herpes, sızanaq kimi bir çox dəri xəstəliklərini müalicə edir.



Bir çox saç məhsullarının tərkibinə daxil olan yodlaşdırılmış su baş dərisini təmizləyir, qaşınma və qıcıqlanmanı sakitləşdirir və qan axını dəstəkləyir.

## Ağrıkəsici və antibakterial təsir göstərir

Dəniz suyunun səthi hissəsi əzələ boşaldıcı təsiri olan brom ifraz edir. Dəniz suyunda üzgüçülük seansı ilə məşqləri tamamlamaq sağalmanı sürətləndirir və ağrıların qarşısını alır.

Dəniz suyunda asılmış fitoplankton antiviral və antibakterial xüsusiyyətlərlə əlaqəli biokimyəvi maddələrə malikdir. Bu yolla dəniz suyu burun xəstəliklərini, astma və bronxiti aradan qaldırır.

Bundan əlavə, dəniz suyunun tərkibindəki yod qalxanabənzər vəzi stimullaşdırır. Beləliklə, hormonlar bədəndə daha yaxşı paylanır.

## Sınıqları daha sürətli sağaldır

Dəniz suyu bütün toxumalara, hətta sümük quruluşuna da faydalıdır. Sınıqdan sonra müalicə dəniz mühitində aparıldıqda, xüsusilə də dəniz suyunda olan kalsium sayəsində sağalma daha sürətli olur.

## Tənəffüs yollarını açır

Dəniz suyu tənəffüs problemi olan insanlar üçün tövsiyə olunur. Tənəffüs yollarına təmizləyici təsir göstərən dəniz aerozolları çox güclüdür.

## Xəstəliklərin qarşısını alır

Dəniz suyunun tərkibindəki elementlər bütün orqanizmi tarazlaşdırır, buna görə də mövcud xəstəliklər üçün müalicəvi və profilaktik təsir göstərir. Dəniz mineralları dəridən asanlıqla keçir. Sonra hər bir orqan lazım olanı alır.

## Dəniz suyu hamilə qadınlara necə təsir edir?

Hamiləlik dövründə dənizdə üzmənin gələcək analar üçün faydalı olacağını ifadə edən Qadın Xəstəlikləri və Doğum Mütəxəssisi Meriç Çağrı Ağır, "Hamilə qadınların dənizdə üzməsi faydalıdır. Lakin girilələcək dənizin təmiz olmasına əmin olmaq lazımdır" dedi.

Üzmənin gələcək analar üçün bir çox fayda təmin etdiyini vurğulayan Meriç Çağrı Ağır, "Natəmiz dəniz sidik yollarının infeksiyaları, göz infeksiyaları və dəri göbələkləri kimi xəstəliklərin riskini daşıyır. Təmiz hesab edilən dənizlərdə üzmək hamilə qadınların bel ağrılarına yaxşı təsir göstərə bilər. Sakit və həddindən artıq səy göstərmədən üzgüçülük onları rahatlaşdıracaq və stressini azaltmağa kömək edəcək".

Lakin hamilə qadınların təkbaşına suya girməyi məsləhət görülmür. Fövqəladə vəziyyətdə yanınızda birinin olması yaxşıdır. Üzgüçülükdən əvvəl bədəni tədricən qızdırmaq lazımdır. İsinmə hərəkətləri ilə buna başlamaq lazımdır.

Uzun müddət ac və susuz qalmadan yarım saat ərzində yavaş tempdə edilən üzgüçülük fəaliyyəti hamilə qadınlara fayda verəcək. Sakit və həddindən artıq səy göstərmədən üzmək faydalı olsa da, həddindən artıq yorğunluğa səbəb olan suya tullanma, su idmanlarından uzaq durmaq, uzun müddət gərgin fəaliyyətlərdən uzaq olmaq lazımdır.



Meriç Çağrı Ağır, "Üzmək üçün dənizə və ya hovuza üstünlük verəcək hamilə qadınlar bəzi hallarda bu seçimlərdən imtina etməlidirlər. Əgər uşağın tələfolma riski varsa və qanaxma riski, döş qəfəsində ağrı varsa üzməməlisiniz. Eyni zamanda dayaz sularda üzməyə üstünlük vermək daha yaxşı seçim ola bilər, çünki hamiləlik zamanı sancılar artır".

## Hamilə qadınlar hovuza üstünlük verməlidirmi?

Hovuzlarda yoluxma riski dənizlərə nisbətən daha yüksək ola bilər. İnfeksiya riski ilə yanaşı, hovuzlarda dezinfeksiyaedici olaraq istifadə edilən dərmanların körpəyə zərər verə bilmə ehtimalı da var. Bu səbəbdən xüsusilə yay aylarında sərinləmək və dincəlmək üçün dənizi seçmək tövsiyə olunur.

## Dəniz suyunun qadın xəstəliklərinə hansı faydaları var?

Türk Qadın Xəstəlikləri və Doğum Mütəxəssisi Bilal Cengiz Şahbaz üzgüçülüyün yayda edilə biləcək ən gözəl fəaliyyətlərdən biri olduğunu, lakin düzgün tədbir görülmədikdə dəniz və hovuz suyunun qadınlarda infeksiya riskini artırdığını bildirib.

Həkim bildirib ki, vagina çox sayda bakteriyanın yerləşdiyi bir orqandır. Bir çox insanın bakteriya deyərkən ağlına infeksiyaya səbəb olan zərərli mikroorqanizmlər gəlsə də, vaginadakı bakteriyalar üçün bu hal belə deyil. Bağırsaqlarda olduğu kimi, vaginadakı bakteriyalar da zərərli bakteriya və göbələk növlərinin yerləşdikləri bölgəyə gəlməsinin qarşısını alır. Beləliklə, vaginadakı bakteriyalar orqan daxilində tarazlıq qurur və cinsiyyət orqanlarının sağlamlığına müsbət töhfə verir.

Hovuz və dəniz suyu vaginada tarazlığı poza bilər. Bildiyiniz kimi, hovuzları təmizləmək üçün xlordan istifadə olunur. Xlor hovuz suyundakı zərərli mikroorqanizmləri öldürür və üzgüçülük üçün uyğun gigiyenik mühit təmin edir. Lakin xlor hovuzdakı su ilə yanaşı, bu suda üzən qadınların vaginalarında olan faydalı bakteriyaları da öldürür. Buna görə də vaginada tarazlıq pozulur və infeksiyaya açıq olur.

Yay aylarında çox daha tez-tez vaginal infeksiyalarla qarşılaşdıqlarını ifadə edən Bilal Cengiz Şahbaz görüləcək bəzi tədbirlərlə hovuz suyunun səbəb olduğu vaginal infeksiyaların qarşısının alına biləcəyini söyləyib: "Yaş çimərlik paltarında uzun müddət oturmaq infeksiya üçün risk faktorudur".

İnfeksiyanın qarşısını almaq üçün görüləcək ən əhəmiyyətli təcrübələrdən birinin sudan çıxdıqdan dərhal sonra dəniz paltarının dəyişdirilməsi olduğuna diqqət çəkərək, bu qiymətləndirmələri etdi: "Yaş çimərlik paltarında uzun müddət dəniz və ya hovuz kənarında oturmaq infeksiya üçün risk faktorudur. Yaş çamaşırlar genital bölgənin uzun müddət nəm qalmasına səbəb olur. Rütubət isə bakteriya və ya göbələk kimi mikroorqanizmlərin inkişafı üçün ideal mühit yaradır. Bundan əlavə, dəniz paltarlarının istehsalında ümumiyyətlə sintetik, hava keçirməyən parçalardan istifadə olunur. Bu parçalar genital bölgənin kifayət qədər hava almasına mane olur və infeksiya riskini artırır.

Dənizdən və ya hovuzdan çıxdıqdan sonra mümkün qədər tez duş qəbul etmək lazımdır. Üzdükdən dərhal sonra duş qəbul etmək, quru və pambıq alt paltarı geyinmək vaginal infeksiyaların qarşısını almaqda çox təsirlidir.

Bütün bu fərdi qulluq tövsiyələrinə əlavə olaraq, pəhrizlə bağlı tövsiyələr verməmək mümkün deyil. Şəkərli qidaların istifadəsi göbələklərin və bakteriyaların çoxalmasını asanlaşdırır. Həmçinin, bu qidalar immunitet sistemini zəiflədir. Ona görə də şəkər istehlakının məhdudlaşdırılması həm də yayda vaginal infeksiyalardan qorunmağa kömək edir".

## Dəniz suyunun uşaqlara faydası nələrdir?

Türk Uşaq Allergiya Mütəxəssisi Akgül Akpınarlı Antoni bildirib ki, allergiyası olan uşaqlar üçün ən yaxşı müalicə dəniz suyu və günəşdir: "Dəniz suyunun şəfalılığı əsrlərdir məlumdur. Əslində müasir təbabətin atası Hippokrat dəniz suyunun balıq adamlarının yaralarını sağaltdığını kəşf etdikdən sonra öz xəstələrinə bundan istifadə edib".

Dəniz suyu insan qanında olan tərkibə ən yaxın mayedir və tərkibində osmium, qızıl, vanadium, sink, yod və kalium xlorid də daxil olmaqla 80-dən çox faydalı maddə var. Dəniz suyu mineral duzları, amin turşuları və mikroelementləri ilə insan orqanizmi üçün vitamin ehtiyatıdır və allergik xəstəliklərin müalicəsində ən mühüm təbii müalicə üsullarından biridir.

Xüsusilə uşaqlar dəniz suyundan bolbol faydalanmalıdırlar. Dəniz suyunda olan kalsium karbonat, sulfat, kalium xlorid və sulfat, maqnezium xlorid, maqnezium sulfat xüsusiyyətləri uşaqlar üçün şəfalıdır.

Akgül Akpınarlı Antoni, "Dəniz suyu günəşlə birləşdikdə atopik dermatit və ya uşaqlıq ekzeması dediyimiz dəri xəstəliyinə çox yaxşı təsir edir. Dəniz suyu səpgilərə də faydalıdır.



Bundan əlavə dəniz suyunun ən təsirli xüsusiyyəti allergik reaksiyalar nəticəsində yaranan çapıqların məhv edilməsidir.

Dəniz suyu bütün sinus yollarını təmizləyir. Buna görə də allergik rinit və xroniki sinüzitin təmizlənməsində çox təsirlidir. Astma, aşağı tənəffüs yolları və bronxların allergik xəstəliklərinin müalicəsində, burun və sinusların təmiz saxlanmasında çox müsbət təsir göstərir.

Üzgüçülük ağciyərlərin tutumunu artıran ən təsirli fiziki müalicədir və astma xəstəsi olan hər bir şəxsə etməyi tövsiyə etdiyimiz ən əhəmiyyətli idman növlərindən biridir. Təbii ki, dəniz tətilinin ən əhəmiyyətli faydalarından biri də yayda günəşdən gələn ultrabənövşəyi şüalarla dərimizə hazırladığımız və bədənimizdə saxladığımız, qışda bizi xəstəliklərdən qoruyan D vitaminidir. Bu müdafiə sistemimizi gücləndirir və allergik xəstəliklərin əmələ gəlməsinin qarşısını alır.

***Ayşən Vəli***

# Erməni vəhşiliyi tarixin qan yaddaşından silinməyəcək

Ermənilər xarici güclərin hərbi-siyasi dəstəyilə Azərbaycan ərazilərinə köçürüləndən millətimiz üçün islaholumaz düşmənə çevrilib. Özlərinə yer seçib yaşamağa başlayandan məqsəd və məramları azərbaycanlıları soyqırıma məruz qoyub, şəhər və kəndləri dağıtmaq olub. Məkrli istəklərinə də nail oublar. İki yüz il ərzində iki milyondan çox azərbaycanlı qətlə yetirilmiş, yüzlərlə yaşayış məskəni dağıdılaraq yer üzündən silinmişlər. Vəhşi toplum insanları qətlə yetirib, torpaqlarımızı işğal etdikləri zaman maddi mədəniyyət nümunələrini, tarixi abidələrimizi də məhv etmişlər. Təkcə Şuşa şəhərində 600-dən artıq mədəniyyət nümunələrini vandallar məhv etmişlər. Düşmən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Əminəm ki, yağı düşmən döyüş meydanında əzildiyi kimi bəşəriyyət qarşısında da rəzil ediləcək. Demokratik düşüncəli dünya xalqları, ədaləti mövqe sərgiləyən beynəlxalq təşkilatlar ermənilərin layiqli şəkildə cəzalandırılması üçün sərt tədbirlər görəcək, qərarlar qəbul edəcəklər. Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin dediyi tarixi fikiri xatırlamaq yerinə düşərdi: "Noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir".










## Tarixi qələbəmiz davamlı olacaq

Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edib. "Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!". Erməni vəhşi toplumu işğaldan azad olunmuş ərazilərdə məscidləri, mədrəsələri, körpüləri dağıtmış və bəzi hallarda məscidlərdə heyvan saxlamaqla bəşəri dəyərləri təhqir etmişlər. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və digərləri erməni vandalizminin qurbanı olmuşlar. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan deymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Tarixi sənədləri araşdırarkən bəlli olur ki, 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə, 9 sünni məscidi fəaliyyət göstərib. Mövcud sənədlər hal-hazırda nəinki Azərbacanın dövlət arxivlərində. eləcə də Sankt-Peterburq, İrəvan, İstanbul arxivlərində də saxlanılır. Həm də məlum olur ki, İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər". Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. Tarix ədaləti bərpa edir. Hər zaman belə olub, bu gün də belə olacaq. Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

## Qərbi Azərbaycan ölkəmizin qədim bölgələrdən biridir

Söz yox ki, erməni vəhşi toplumu vandalizm əməllərini Qərbi Azərbaycan ərazilərində də davam etdirmişdir. Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrini də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdlarını tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir". Qərbi Azərbaycan ölkəmizin qədim bölgələrdən biridir. Burada mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. Əhalisi soyqırım və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri də qədim Zəngəzur torpağıdır. Bu torpaqlara qayıdış əsas hədəflərimizdəndir. İnanıram və həm də əminəm ki, hərbi, siyasi, diplomatik qələbəmiz Zəngəzura, İrəvana və digər Qərbi Azərbaycan torpaqlarına qayıdışımızla davam etdiriləcək.

**İ.ƏLİYEV**

# ”Cəmil Həsənlinin dərdi Qubad dərdi deyil, öz dərdidir”

“Qubad Ibadoğlunun həbsindən bəri söylədiyim bir fikri yenidən təkrarlamaq istəyirəm: Cəmil Həsənlinin dərdi Qubad dərdi deyil, öz dərdidir. Çünki illərdir onlar bərabərdir və bu minvalla çox güman ki, bütün əyri, neqativ, qanunazidd əməlləri, işləri də bərabər görüblər. Ona görə Həsənli özünə əl qatıb, ona görə panikadadır, ona görə çırpınır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elşən Musayev deyib. Deputat sözlərinə belə davam edib: ”Üstəlik, həmin Cəmil axı bir müddət əvvəl Qubada satqın deyirdi: ”Londonda birləşməmişdən öncə. Bəs necə oldu fikir dəyişdi? Necə oldu dostluq yarandı? Necə oldu bir yerdə ”fond” və s. yaratmaq qərarına gəldilər? Necə oldu Qubadın müdafiəsi ilə bağlı belə canfəşanlıq eləmək həvəsinə düşdü? Nədir bunları birləşdirən? Hansı səbəbdir bunları bir-biri üçün ”vazkeçilməz” edən? Bilirsizmi nədir? Anti-milli fəaliyyət ortaqlığı! Günah və cinayət ortaqlığı! Yanlış və rəzil məfkurə ortaqlığı!Qısası, dediyim kimi, Cəmil indi öz hayındadır. O, yəqin başa düşür ki, şahidlər artdıqca Qubad mövzusuna daha çox aydınlıq gələcək və beləcə cinayət ortaqlarının sırası, dəqiq dairəsi də müəyyənləşəcək.Radikal müxalifətdəki başbilənlərin hamısı ”çete”, qaraguruh yığınıdır. Zamanı gələndə də bir-bir, növbə-növbə ifşa olunacaqlar. Buna əminəm”.



*Ayşən Vəli*

# Ermənistanın daraldıqca daralan çəmbəri

*Heç nə Ermənistanın istədiyi kimi nəticələnməyəcək*

***Son vaxtlar Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə cərəyan edən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür və bu da danılmaz faktdır.***



Daha dəqiq desək, bu kimi məlumatlarla Azərbaycanın Müdafiə və Xarici İşlər Nazirlikləri də dəfələrlə rəsmi məlumatlar yayıblar. Zaman-zaman erməni silahlı birləşmələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaları və s. təxribatlar nəticəsində toplanan dəlillər də bunu təsdiqləyir.

Lakin diqqətçəkən daha bir məqam odur ki, Ermənistan bir tərədən danışıqlar prosesini davam etdirmək istədiyini açıqlayır, digər tərəfdən isə bölmələrimizi atəşə tutur və hər təxribatın qarşısı artıqlaması ilə alınır. Sonuncu ”Qisas 2” əməliyyatı da buna gözəl nümunə idi. Proseslərə diqqət yetirdikdə, Ermənistanın bu addımlarının nəyə xidmət etdiyi növbəti sualları doğurur.

***Ermənistanın istədiyi nədir - sülh prosesinin əldə edilməsi mümkünlüyünü uzatmaq, yoxsa üçüncü Qarabağ müharibəsini başlatmaq?***

Bugünlərdə bir sıra politoloqların və hərbi ekspertlərin irəli sürdükləri fikirləri də maraq doğurur. Və bu məsələdə Rusiya sülhməramlılarının da qaranlıq cəhdləri önə çıxarılır. Belə ki, Qarabağda müvəqqəti yerləşən Rusiya sülhməramlılarının arxasında gizlənən erməni silahlı birləşmələri atəşkəsi pozmaqla təxribatlar törədirlər və RSK sanki bunlara şərait yaradır. Bəs xəritədən silinmək təhlükəsi altında qalan Ermənistan tərəfi bundan bixəbərdirmi?

### Bu güc özünü siyasi masada da göstərir

Fakt budur ku, 44 günlük Vətən müharibəsindəki zəfərimizdən sonra Ermənistandakı iqtisadi, siyasi və hərbi vəziyyət acınacaqlıdır. Müharibədən sonra kapitulyasiya aktına imza atan Ermənistanın 10 mindən yuxarı, demək olar ki, ordusunun sayı qədər fərarisi var. Həmçinin, orada 5 mindən yuxarı birinci qrup, 6 mindən çox ikinci qrup əlil hərbçi var. Yəni, Ermənistandakı ümumi mənzərəyə baxanda hərbi-iqtisadi vəziyyət göz önündədir.

Ermənistanda silah-sursatın olmaması, ordudakı ağır korrupsiya faktlarına görə də erməni ordusundan danışmaq yersizdir. Dünyada bənzəri olmayan bir formada erməni xalqı müharibəni uduzan komandanın partiyasını yenidən iqtidarda saxlayır. Bu, insanların müharibə istəmədiyini göstərir. Onlar ən pisləri arasından daha az pis olanı seçirlər. Yəni, erməni xalqı yenidən Serj Sarkisyan və Robert Koçaryan kimi siyasi don geyinən terrorçuların hakimiyyətə gəlməsini istəmir. Hərçənd ki, Nikol Paşinyan islahatlar aparacağı barədə anons verir, lakin xalq bunu görmür. Onun yarıtmaz komandası, qeyri-müəyyən siyasəti və revanşist qüvvələrin müharibə ritorikası Paşinyanı normal çalışmağa qoymur. Onu müstəqil siyasət yeritməyə revanşist toplum və onları idarə edən terrorçular qoymur. Təbii ki, Qərb dairələrinin də təsirləri kifayət qədərdir.

Bunların hər biri günün reallığıdır. Azərbaycanın qalib durumu, siyasi, iqtisadi, hərbi və geopolitik sahələrdəki düzəni formalaşdırması ölkəmizi daha güclü edir. Bu güc özünü siyasi masada da göstərir. Postmüharibə dövründəki bütün görüşlərdə Azərbaycan lideri bu danışıqlarda diktə edən tərəf olur. Bu gün də bu siyasət davam etdirilir.

Lakin ermənilərin atəşkəsi pozması qarşısı alınmayacaq uğurların ləngidilməsinə hesablanır. Onlar atəş açmaqla sülhə gedən yolu uzatmağa və vaxt qazanmağa çalışırlar. Lakin vaxtın nə üçün qazanılması heç onların özlərinə də aydın deyil. Çünki Ermənistan gün keçdikcə çökür. Yəni, orada hansısa bir inkişaf mövcud deyil ki, güclənmək və ordu formalaşdırmaq imkanları olsun. Təbii ki, bu hərəkətlər absurddur. Amma bu, erməni xisləti və hiylədir.

### Ermənistanın bugünkü hərbi-siyasi rəhbərliyi daha dərindən düşünməli və rasional qərarlar qəbul etməlidir

Azərbaycan da bunları çox yaxşı görür və analiz edir. Söz yox ki, lazım olan vaxtda layiqli cavablar verilir. Necə ki, son günlərdə ”Qisas 2” əməliyyatı ilə mənfur düşmənin təxribaxtlarına cavab oldu. Bir daha ermənilərə göstərildi ki, hansısa böyük təxribat onların sonlarını gətirib çıxara bilər.

Ermənistanın bugünkü hərbi-siyasi rəhbərliyi daha dərindən düşünməli və rasional qərarlar qəbul etməlidir. Bu, Azərbaycanın təklif etdiyi 5 baza prinsipləridir ki, bunlar bölgəyə həm siyasi, həm də iqtisadi sabitlik gətirə bilər.

Ermənistan Azərbaycanın təklif etdiyi bütün şərtlərə əməl etməyə borcludur. Birincisi, Ermənistan məğlub ölkədir, ikincisi isə bu təkliflər hamı üçün məqbuldur. Azərbaycan yalnız öz çıxarlarını deyil, bütün reallıqları nəzərə alıb və çalışır ki, bundan sonra müharibə olmasın, sülh və əmin-amanlıq olsun. Bunun üçün artıq Ermənistanın vaxtı daralır. Ona görə də rəsmi İrəvan yaxşı düşünərək adekvat addım atmalıdır. Əks halda, heç nə Ermənistanın istədiyi kimi nəticələnməyəcək.

*Afət Tahirqızı*

ANALİTİK



Elçin Bayramlı

# Kimyəvi evin üstünlüyü

Biri var idi biri yox idi, günəşli, küləkli, meşəli, dənizli odlar yurdunda bir qoca yaşayırdı. Qoca ömrünü yaşadığı kənddə kərpic kəsib satmaqla keçirirdi. Pafoslu desək, insanlara təbii materialdan ev tikməyə imkan yaradardı. Bu minvalla aylar keçdi, illər ötdü, zəmanə birdən-birə dəyişdi. Alimlər kimya elmini inkişaf etdirib yeni-yeni süni materiallar kəşf etməyə başladılar. Bundan bəhrələnən bir para dələduzlar başladılar kimyəvi materilallar düzəldib satmağa.

Qocanın yaşadığı məmləkətin əhalisi də bir ədəbaz, bir az da modabaz olduğundan kərpici daha vecinə almayaraq başladılar bu təhlükəli materialları alıb süni evlər tikməyə. İnsafən bunlardan çoxu ucuz başa gəlirdi, üstəlik gözqamaşdıran bərbəzək evə xüsusi yaraşıq verirdi.

Qoca gördü vəziyyət pisdir, belə getsə acından öləcək, sexin profilini dəyişib keçdi taxta qapı-pəncərə düzəltməyə. Amma bu işdən də kar edə bilmədi. Bir də baxdı ki hamı keçib plastik qapı-pəncərəyə. Soruşdu ki, ey əhli kəndistan, niyə bu təhlükəli, zəhərli, kimyəvi qapı-pəncərəni evinizə vurub uşaqlarınızı və özünüzü zəhərləyirsiniz? Cavabında ərz elədilər ki, ağsaqqal, vəziyyət belədir ki, indi sən gördüyün zaman deyil. İndi moddur, hamı bundan vurur.

Qoca heç zad qana bilmədi bu mod söhbətindən, bunu görən yaxınlıqdakı şəhərdən qonaq gəlmiş bir həmkəndlisi ona bir təklifdə bulundu- ”Gəl gedək bizim evə sənə bunun səbəblərini əyani çəkildə göstərim”.

Az getdilər, üz getdilər axır gəlib çatdılar şəhərə. Qalxdılar 5-ci mərtəbəyə. Evə girən kimi, adam plastik pəncərəni açıb qocaya dedi: ”İndi 5 dəqiqə yanıvu bas stula, mən sənə bir kraskalı çay dəmləyim içək”.

Qoca əyləşdi və həyəti seyr eləməyə başladı. Elə bu anda ətrafa elə bir dəhşətli öküz səsi yayıldı ki, sanki ən böyük səsgücləndiricilərdən 5-6 dənəsini yandırıb mikrofonu da tutmusan hər tərəfdən biz batırılan öküzün ağzına.

Səsin qüdrətindən qocanın ürəyi getdi. Ayılanda gördü ki, dostu üzünə su vurur. Soruşdu ki, ”qərdeşimsön bu nə hangamədü mən məəttəl qalmışam”. Ev yiyəsi ərz elədi ki, ”bəs qonşunun oğludur, maşınına belə siqnal qoyub, hər gün məələdə bu öküzü 20-30 dəfə böyürdür. Əybi yoxdur, sən bir-iki dəqiqə hövsələ elə, çay dəm alır, gətirim içək. Arvadağa evdə yoxdur, o biri mikrorayondan su daşımağa gedib, neçə gündür suyumuz gəlmir”.

Xülasə, qoca təzədən əyləşdi stulda və həyəti seyr eləməyə davam elədi. Bir tərəfdə məktəbdən gələn uşaqlar süpürləşir, o biri tərəfdə arvadlar dalaşır səs-küyləri aləmi götürüb. Üstəlik, yan balkonda birdən əcaib bir rok musiqisi başladımı? Bir neqr gurultulu, çingiltili, çığırtılı musiqinin fonunda necə əcaib səslər çıxarırdısa qocanın halı pis oldu, stuldan yerə yıxıldı.

Səsə dostu gəlib onu yerdən qaldırdı, qonşudakı yelbeyin gəncdən da xahiş elədi ki o maqnitofonun səsini kəssin. Getdi yenə çayı dəmləməyə. Bu arada həyətdə eyni zamanda 3 kişi bağırmağa başladı: ”Xooolоor, xoooloor ”, ”qatıq var, süd var”, ”pomidor, kartoşka, alma ”.

Nəhayət dostu pürrəngi çay gətirib qoydu qarşısına. Yanında da neftdən düzəldilmiş şokalad. Elə yenicə başlamışdılar ki söhbətə keçsinlər, bir də gördülər, daha doğrusu eşitdilər ki, nə isə möhkəm guruldayır.

Ev sahibi qonaq eşitsin deyə var gücü ilə qışqıraraq dedi ki, ”narahat olma, həyətdə ağacları kəsib yerində təzə moyka açıblar, ağlın köhnələrə getməsin, indi naporla yuyurlar maşınları”. Uzun sözün qısası, 15 dəqiqə çay içib gözlədilər ki, səs kəsilsin söhbət edələr. Qoca ha dedi ki, pəncərəni örtək, ev yiyəsi dedi ki, a kişi görmürsən, 50 dərəcə isti var? Deyirsən nəfəsimiz kəsilsin?

Qoca bu söhbətdən çox pəjmürdə olub, bir də bura gəlməyəcəyinə ürəyində tövbə etdi və qalxıb getməyə hazılaşdı. Elə bu momentdəcə ev yiyəsi plastik pəncərəni örtdü. Bayaqdan səs-küydən dəlixanaya dönən evə bir anda sakitlik çökdü. Qoca məəttəl-məəttəl dostuna baxdı.

Ev yiyəsi dedi ki, ”ağsaqqal özün dünya görmüş kişisən, daha mən sənə artıq nəsə söhbət eləməyim. Bu xəstəlik yaradan plastik pəncərələri almasaydım, indi çoxdan dəlixanada idim. Bax müasirlik budur- sağlamlığından kəsib rahatlığını təmin etməyə məcbursan, eləməsən əsəblərin pozulub dəli olacaqsan və düşəcəksən dəlixanaya. Yoxsa elə bilirsən biz qanmırıq bu kimyəvi şeylər bizim başımıza nə oyun açır?”.

Qoca dostu ilə sağollaşıb mürəxxəs oldu qulluğundan və düz getdi öz sexinə, yarı qiyməyə obyekti satıb, başladı həyətlərdə xlor satmağa...

# Bəlkə sizin övladınız da onun qurbanıdır?

## Hər il dünyada 70 min uşaq passiv siqaret istifadəçisi olduğu üçün ölür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*







ÜST-nin məlumatlarına görə, dünyada təxminən 1,5 milyard insan siqaret çəkir və bu rəqəmin 2025-ci ildə 1,7 milyarda çatacağı gözlənilir. Dünyada hər il 8 milyondan çox insan infarkt, xərçəng, damar xəstəlikləri, hipertoniya və tənəffüs xəstəlikləri kimi tütün məmulatlarının istifadəsi səbəbindən dünyasını dəyişir. Bu ölümlərin 1 milyondan çoxu siqaret tüstüsünün təsiri ilə bağlıdır. Böyüklərin siqaret aludəçiliyi kiçiklərin ömrünü həyatlarının ilk illərində yarıda qoyur. Passiv istifadəçi olan uşaqlar, əsasən, xərçəng, nəfəs yolu xəstəliklərinə yoluxurlar, bir qismi isə qəfil ölümün qurbanı olur.

### Hər şey ilk 30 dəqiqədə baş verir

Siqaret səbəbi ilə reallaşan ölümlərin növbəti 8 ildə iki dəfə artacağı gözlənilir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, dünyada uşaqların yarısı tütün tüstüsünə məruz qalır, təxminən 70 min uşaq isə passiv məruzqalma nəticəsində tənəffüs yoluxucu xəstəliklərdən 5 yaşına qədər ölür.

Siqaretçəkmə nisbətləri ölkələrin və regionların inkişaf səviyyəsinə görə dəyişir. Məlumatlara görə, dünyada 1 milyarddan çox aktiv siqaret çəkən var və onların 84 faizi inkişaf etməkdə olan və ya inkişaf etməmiş ölkələrdə yaşayır.





Araşdırmalar aktiv siqaret istifadəçilərinin çəkdiyi siqaretin tüstüsünə məruz qalan passiv istifadəçilərin 30 dəqiqə ərzində fiziki problemlər yaşadığını aşkarlayıb. Bundan əlavə, ÜST mütəxəssisləri qeyd edir ki, passiv istifadə zamanı insan orqanizmində baş qaldıran xərçəngdən ölənlərin sayı nüvə, radiasiya, kimyəvi dərman, təhlükəli maddələrlə tənəffüs nəticəsində yaranan xərçəng xəstəliyindən vəfat edənlərin sayından daha çoxdur.

Mütəxəssislər qeyd edir ki, siqaret yandırıldıqda 50%-i tüstüyə çevrilir, ətrafa yayılır, 25 % külə çevrilir, 25% isə çəkənin ciyərlərinə hopur. Nəticədə, siqaret çəkəndən çox tüstüyə məruz qalan passiv istifadəçi zərər görür.

Dünyada hər 2 kişidən biri və hər 5 qadından biri aktiv siqaret istifadəçisidir. Hesabata görə, dünyada 2 milyarda yaxın siqaret aludəçisi var. Dünya üzrə hər 5 saniyədə 1 nəfər siqaretdən yaranan xəstəlikdən ölür. ÜST-ün məlumatına görə, ötən əsrdə 100 milyon insan bu zərərli vərdişin qurbanı olub.

Azərbaycanda 3 milyona yaxın siqaret istifadəçisinin olduğu təxmin edilir. Bu rəqəm dünyanın ən yüksək siqaret statistikalarından biri hesab olunur. ÜST-ün bir neçə il əvvəl hazırladığı siyahıda Azərbaycan siqaret çəkən ölkələr arasında 85-ci yerdə qərarlaşır. Siqarettərgitmə xətti bu günədək milyonlarla insanın siqaretdən asılılığını dəf edib.

### Dünya ondan qurtulmaq üçün nələr edir?

Dünyada ən yüksək siqaretçəkmə nisbəti Cənub-Şərqi Asiya və Balkan ölkələrində olduğu halda, Qərbi Avropa və Amerikada bu nisbət daha aşağıdır. Bir çox Cənubi və Cənub-Şərqi Asiya ölkələrində kişilər arasında siqaretçəkmə nisbətləri daha yüksəkdir. Məsələn, İndoneziyada kişilər arasında siqaretçəkmə nisbəti 76,2 faiz olduğu halda, qadınlarda bu göstərici cəmi 3,6 faizdir.

ÜST-nin və ölkədə aparılan tütün əleyhinə kampaniyaların effektivliyi ilə bütün dünyada siqaret asılılığı sürətlə azalmağa meyillidir. Məsələn, İngiltərədə 2000-ci ildə siqaretçəkmə nisbəti 38 faiz idisə, hazırda bu nisbət 19-a düşüb.

Çin, Hindistan, İndoneziya, ABŞ, Rusiya, Banqladeş, Yaponiya, Türkiyə, Vyetnam və Filippin tütün çəkən dünya əhalisinin üçdə ikisini təşkil edir. Bu ölkələrin ardınca müvafiq olaraq Myanma, Çili, Livan, Serbiya, Banqladeş, Yunanıstan və Bolqarıstan gəlir.

Siqaretin aldığı canların günügündən artmasına səbəb ictimai yerlərdə siqaret çəkilməsidir. İctimai yerlərdə siqaret qadağası dünyanın bir çox ölkəsində var. İlk dəfə 2004-cü ildən belə bir qadağa qoyulub, qanunda da əksini tapıb. İndi Almaniya, Belçika, Bolqarıstan, Böyük Britaniya, Fransa, İtaliya, Danimarka, Yunanıstan, Hindistan, Misir, İspaniya, Çin, Rusiyada da bu qanunla ictimai yerlərdə siqaret qadağan edilir. Qanunu pozub çəkənləri də 25 dollardan 3000 dollaradək cərimə gözləyir.

### Bəs biz?

"Tütün və tütün məmulatı haqqında" qanunda qanunun 21-ci maddəsinə əsasən, Azərbaycanda tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda, inzibati binalarda fərdi iş otaqları və siqaret çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində, yüksək kateqoriyalı restoranlar, kafelər, barlar istisna olmaqla, ticarət, ictimai-iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, uzaq mənzilli sərnişin nəqliyyatında xüsusi ayrılmış yerlər istisna olmaqla, bütün ictimai nəqliyyat növlərində siqaret çəkmək qadağandır.

İnzibati Xətalar Məcəlləsinə görə, hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə 100 manat miqdarında cərimə, dəmiryol nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə xəbərdarlıq və ya 5 manatdan 15 manatadək miqdarda cərimə, metropoliten stansiyalarının vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda siqaret çəkməyə görə 50 manat miqdarında cərimə, dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə xəbərdarlıq və ya yeddi manatdan 13 manatadək miqdarda cərimə, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkilməsinə görə 40 manatdan 50 manatadək miqdarda cərimə müəyyən edilib.

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
9 avqust
2023-cü il



# Dünyanın ruhu xəstələnib, əlacı varmı?

## Ruh yüksəkliyini necə yaratmalı və necə yüksəltməli?

***Ruhi sağlamlıqla fiziki sağlamlığın, əslində, ayrı-ayrı qavramlar olduğunu desələr də, bir çox psixoloqa görə hər ikisi bir-birinin eynidir. "Sağlam ruh sağlam bədəndə olar" misalı bu yerdə ən yaxşı örnəkdir. İnsan sağlamlığını qorumaq üçün bədəninə vaxt ayırdığı qədər ruhunu da nəzərə almalıdır, onların bir-birinə sıx əlaqələrlə bağlı olduğunu deyən ekspertlər yaşadığımız dövrdə ruh yüksəkliyinin az adamda rastlandığını da vurğulayırlar. Bəs dünyanın ruhi vəziyyəti necədir?***

### Dünyanın dərdi var, dünya xəstədir

Dünyada hər dörd nəfərdən biri həyatının hər hansı bir mərhələsində psixi xəstəlikdən əziyyət çəkir. 75 yaşlı insanlarda bu nisbət hər iki nəfərdən biridir. Bütün dünyada psixoloji sağlamlıq problemləri olan 500 milyondan çox insan var və onlardan yalnız hər 20 nəfərindən biri, bəzən hətta 30 nəfərindan biri tibbi yardım ala bilir. Ən çox müşahidə edilən ruhi xəstəliklərə depressiya, narahatlıq, davranış pozğunluqları, alkoqol və narkomaniyaya bağlı psixi pozuqluqlar və şizofreniya daxildir.

Məlumat üçün qeyd edək ki, araşdırmalara görə hər ölkədə əhalinin 20-25 faizi ruhi xəstəliklərdən əziyyət çəkir. Ruhi pozğunluqlar həm yüngül, həm də ağır xarakterli olur. Ölkələr arasında ruhi xəstəliklərin sayına görə, kəskin fərqlənən demək olar ki, yoxdur. Mütəxəssislər hesab edir ki, bu xəstəliklərin əksəriyyəti müalicə edilə bilər. Çünki əksəriyyət sadəcə ruh düşkünlüyü yaşayır və əhvalını yüksəltmək istəmir.

### İşini sevməyənlər daha çox əziyyət çəkir

Psixoloq Məlahət Həsənova bildirir ki, sağlam bir bədən üçün yediklərimizə nə qədər fikir veririksə, saatlarla idman zallarında məşq ediriksə sağlam bir ruh üçün də olduğumuz mühitə, ünsiyyətdə olduğumuz insanlara, müzakirə etdiyimiz mövzulara, izlədiyimiz televiziya proqramlarına diqqət etməliyik. Bədənimizi tanıdığımız, bizə nəyin zərər verib-vermədiyini bildiyimiz kimi, ruhi vəziyyətimizi də nəzarətdə saxlamalıyıq. İnsanın həmişə özünü başqalarına oxşatması, uğurlu insanların uğuruna paxıllıq və ya qibtə etməsi, hərəkətlərinə sərhəd qoymayaraq sonunda peşmançılıq yaşamaq ruh düşkünlüyünü yaradan birinci səbəbdir.

Səhər 8-dən işə gedib gündə 9-10, bəzən 12-13 saat işləyən insanlarda ruh düşkünlüyü daha çox rastlanır. Müsahibimiz deyir ki, qadağalar, sərt iş qanunları bu problemi yaradan ikinci səbəbdir: "İşini sevməyən insanlarda ruh düşkünlüyü daha çox rastlanır. İşə həvəssiz gedən, bütün günü gördüyü işin stressi altında əzilən, axşamın olmasını, iş saatının bitməsini səbirsizliklə gözləyən insanlarda əlbəttə ki, ruh yüksəkliyi olmayacaq. Pessimizm, bədbinlik, həvəssizlik insanı yoran şeylərdir, ruhu yüksəldən, əhvalı yaxşılaşdıran məşğuliyyətlər belə zamanlarda müsbət effekt verir".

### Ruh yüksəkliyini necə yaratmalı?

Müsahibimiz deyir ki, bədənimizin edə bildikləri və edə bilməyəcəkləri olduğu kimi ruhumuzun da müəyyən sərhədləri var: "Təsəvvür edin, tanımadığınız bir mühitdə tanımadığınız bir insan sizə yaxınlaşanda necə narahatlıq keçirirsinizsə, eyni vəziyyət ruhunuz üçün də keçərlidir. Ruh yüksəkliyini yaratmaq, əslində, öz əlimizdədir. Qətiyyətlə ruhu yoran, əsəbləri tarıma çəkən hadisələrə qarışmayın, televizorda yalnız ürəkaçan proqramlara baxın, tez-tez klassik və milli musiqilər dinləyin. Bunu bir növ terapiya kimi düşünün. Unutmayın ki, sizi işinizdən bezdirən, insanlardan qaçmağınıza səbəb olan ruh düşkünlüyüdür, ona görə ruhunuzu müalicə edin".

Psixoloq ruh yüksəkliyimizi qorumaq üçün bir neçə məsləhət də verdi: "Unutmayın ki, azad, sivil bir insan olmağımız hər şey edə biləcəyimiz anlamına gəlməz. Azadlığımız istədiyimiz hər şeyi etmək demək deyil, azadlıq bəzi şeyləri etmək istəsəniz belə etməməyinizdir. Hər bir insan həyatında nə zamansa əngəllərlə qarşılaşır, işimizi itirə bilərik, axtardığımız ünvanı tapmaya bilərik, zəng etdiyimiz adam telefonuna cavab verməyə bilər, ay sonunda kommunal xərclərimizi ödəməkdə çətinlik çəkə bilərik, imtahanda istədiyimiz nəticəni əldə edə bilmərik, bütün bunlar əlbəttə ki, dünyanın sonu deyil və ruh yüksəkliyimizi əlimizdən ala bilməz. Əngəlləri qəbul etmək bizi daha çox rahatladacaq".

### Hər addımı planlamaq ruhu xəstələndirə bilər

Həmsöhbətimiz deyir ki, valideynlərimizi, doğmalarımızı itirə bilərik, vəfat edə bilərlər, bu bizim üçün ağır itkidir, amma həyatın qanunudur, ölənlə ölmək olmaz deyiblər, kədərimizi, faciəmizi yaşayırıq, matəmimizi tuturuq, amma yenidən həyata dönmək məcburiyyətindəyik. Çünki bizim də öhdəliklərimiz var, bizə ehtiyacı olan ailəmiz, övladımız və ya həyat yoldaşımız var. Ruh düşkünlüyünə imkan verməyin.

Çalışın insanlığa, dünyaya xeyir verin, nəsə yaradın, tikin, düzəldin, heç olmasa bir heyvana sahib çıxın, mərhəmət hissi ruhu rahatladacaq. Keçmişdə yaşadığınız problemləri ağlınızdan çıxarın, keçmişin bədbin xatirələrinə qapılıb həyatı özünüzə zəhər etməyin. Amma davamlı olaraq gələcəyi də düşünməyin, ölçüb-biçməyin, çünki gələcək sizin planladığınız kimi omayanda sizin ruh sağlamlığınıza təsir edəcək. Həyatda hadisələr öz axarı ilə baş verəcək və gələcək nə cür olursa-olsun, onu qarşılamağa hazır olmaq lazımdır.

***Lalə Mehralı***

# Şəxs vəfat etdikdə miras kimə qalır?

HÜQUQŞÜNAS AÇIQLADI



"Şəxs vəfat etdikdə vəsiyyətnamə qoymayıbsa, qanun üzrə miras vərəsələrə keçir".Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Əkrəm Hüseynov deyib. Onun sözlərinə görə, qanun üzrə vərəsələr isə bir neçə növbədən ibarətdir: "Birinci növbəyə onun valideynləri övladları və həyat yoldaşı daxildir. Yəni, əmlak onların arasında bərabər bölünür. Məsələn, ölənin atası sağdır, anası ölüb. Yaxud ölənin arvadı və iki övladı var. Yəni 4 nəfərdirlər. Deməli, əmlak 4 hissəyə bölünəcək və hər şəxsə 25 faiz çatacaq. Əgər birinci növbədə elə bir nəfər varsa, bütün miras ona qalacaq".

Fariz Hüseynov sözlərinə belə davam edib: "Əgər birinci növbədə olanlardan kimsə (yəni ölənin övladlarından söhbət gedir) ondan öncə ölübsə, bu halda miras onun övladları arasında bölünür. Birinci növbəyə aid vərəsə yoxdursa, yaxud onlar mirasdan imtina edirsə, bu halda ikinci növbəyə keçir. Yəni, qardaş və bacıya miras qalır".

***Ayşən***

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**